**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS 498**

İkinci nəşr
2022

Layihə

# UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ
## Malların sertifikatlaşdırılması qaydası

LAYİHƏ

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS 498:2022

©AZSTAND 2022

LAYİHƏ

⚠ Bu standart Azərbaycan Standartlaşdırma İnstitutunun icazəsi olmadan tam və ya hissə-hissə yenidən çap oluna, çoxaldıla və yayıla bilməz.

Elçin İsaqzadə küç., 7-ci köndələn
Qaynar xətt: +994125149308
Email: office@azstand.gov.az

 ©AZSTAND –Bütün hüquqlar qorunur

## MÜQQƏDİMƏ

**1. "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ tərəfindən işlənib hazırlanıb və təqdim edilib.**

**2 . ______________________________________ Texniki Komitədə müzakirə edilib.**

**3.** Azərbaycan Standartlaşdırma İnstitutunun _____________________ saylı __________________ 2022-ci il tarixli qərarı ilə TƏSDİQ EDİLMİŞDİR.

**4.** AZS 498:2010 "Oxşar malın sertifikatlaşdırma sistemi" dövlət standartının əvəzinə.

**5.** Dövlət standartında müəyyən edilən tələblərin beynəlxalq standartlara, norma, qayda və tövsiyələrə və qabaqcıl dövlətlərin milli standartlarına, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmasını müəyyən etmək üçün standartın dövri yoxlama müddəti 1 ildir.

LAYİHƏ

## MÜNDƏRİCAT


1. Tətbiq sahəsi........................................................................ 1
2. Normativ istinadlar.................................................................. 1
3. Termin və təriflər.................................................................... 1
4. Ümumi müddəalar.................................................................... 3
5. Uyğunluğun qiymətləndirilməsi və sertifikatlaşdırma üçün sifarişin və ona əlavə edilmiş sənədlərin təhlili ................................................. 4
6. Malın eyniləşdirilməsi və sınaq üçün nümunələrin seçilməsi.................................................................. 6
7. Malın sınaqlarının aparılması................................................................ 8
8. Malın layihəsinin tədqiqi ...................................................................... 10
9. Malın tipinin tədqiqi ............................................................................ 10
10. İstehsalatın vəziyyətinin qiymətləndirilməsi........................................ 11
11. Sertifikatlaşdırma nəticələrinin təhlili və uyğunluq sertifikatının verilməsi barədə qərarın qəbul edilməsi .............................................. 13
12. Uyğunluq sertifikatının verilməsi .................................................... 14
13. Sertifikatlaşdırılan malın dövri qiymətləndirilməsi.......................... 14
14. Xarici uyğunluq sertifikatlarının tanınması........................................ 17
15. Uyğunluq sertifikatına dəyişikliklərin və (və ya) əlavələrin edilməsi, sertifikatın qüvvədə olma müddətinin dayandırılması və sertifikatın dublikatının verilməsi ........................................................... 17
16. Uyğunluğun qiymətləndirilməsi prosesində iştirak edən ekspert auditorlara dair tələblər...................................................... 19
**Əlavə A** (Azərbaycan Respublikasında malların sertifikatlaşdırılması üçün tətbiq edilən sertifikatlaşdırma sxemləri)......................................... 23
**Əlavə B** (Malın eyniləşdirməsi aktının forması)......................................... 28
**Əlavə C** (Malın nümunə seçmə aktının forması)..................................... 30
**Əlavə D** (Sertifikatlaşdırılan malların stabil buraxılmasını təmin etmək üçün sertifikatlaşdırılmış keyfiyyət idarəetmə sisteminin və (və ya) qida təhlükəsizliyi idarəetmə sisteminin imkanlarını qiymətləndirmək məqsədilə malın istehsalçısının məlumatları)................................................................... 32
**Əlavə E** (Malın sertifikatlaşdırılması üçün sifariş forması )...................... 34
**Əlavə F** (Uyğunluğun könüllü qiymətləndirilməsi zamanı malların (işlərin, xidmətlərin) uyğunluq sertifikatının forması).................... 37


LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur

## 1 TƏTBİQ SAHƏSİ

Bu standart Azərbaycan Respublikasında malların uyğunluğunun könüllü qiymətləndirilməsi prosedurlarını tənzimləyən əsas müddəaları müəyyən edir.

## 2 NORMATİV İSTİNADLAR

Bu standartda aşağıdakı normativ sənədlərə istinad edilmişdir:

AZS 1.0:2022 Azərbaycan Respublikasının Dövlət Standartlaşdırma sistemi. Ümumi müddəalar.

ISO 17067:2015 Uyğunluğun qiymətləndirilməsi. Malın sertifikatlaşdırılması üzrə əsas müddəalar və malların sertifikatlaşdırılması sxemləri üzrə rəhbəredici göstərişlər.

AZS ISO 19011 İdarəetmə sistemlərinin auditinin keçirilməsi üzrə rəhbəredici sənəd.

## 3 TERMİN VƏ TƏRİFLƏR

Bu standartda aşağıdakı və AZS 1.0 üzrə göstərilən termin və təriflərdən istifadə edilmişdir:

3.1. **uyğunluğun qiymətləndirilməsi** – malın standartlaşdırma üzrə normativ sənədlərdə göstərilən tələblərə uyğunluğunun müəyyən edilməsi prosesi;

3.2**. uyğunluğun qiymətləndirilməsi prosedurları** – standartlaşdırma üzrə normativ sənədlərdə nəzərdə tutulmuş tələblərin yerinə yetirildiyini müəyyən etmək üçün istifadə olunan müvafiq prosedurlar;

3.3. **uyğunluq sertifikatı** – malın standartlaşdırma üzrə normativ sənədlərdə göstərilən tələblərə uyğunluğunu təsdiq edən sənəd;

3.4. **uyğunluğun qiymətləndirilməsi sxemləri** – uyğunluğun qiymətləndirilməsi üçün nəzərdə tutulan prosedurlar və onların ardıcıllığı;

3.5. **sertifikatlaşdırma** - uyğunluğu qiymətləndirən qurum tərəfindən malın standartlaşdırma üzrə normativ sənədlərdə göstərilən tələblərə uyğunluğunun elektron və ya kağız üzərində yazılı formada təsdiqi;

3.6. **uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya** (bundan sonra - **akkreditasiya)** - qurumun uyğunluğun qiymətləndirilməsi sahəsində fəaliyyət göstərməsi üçün akkreditasiya tələblərinə cavab verməsinin akkreditasiya orqanı tərəfindən təsdiqlənməsi;

3.7. **uyğunluğu qiymətləndirən qurum** - malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin və işçi heyətinin müvafiq texniki reqlamentdə, normativ sənəddə və digər normativ-hüquqi aktda müəyyən olunmuş tələblərə uyğunluğunun qiymətləndirilməsini təmin edən təşkilatlar, hüquqi və fiziki şəxslər;

3.8. **sınaq laboratoriyaları - "**Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş qaydada akkreditasiya edilmiş laboratoriyalar;

3.9. **mal nümunələrinin götürülməsi** – malın standartlaşdırma üzrə normativ sənəddə müəyyən edilmiş tələblərə uyğunluğunun təsdiq edilməsi məqsədilə nümunələrinin götürülməsi;

3.10. **standartlaşdırma sahəsində normativ sənəd** – mala dair tələbləri əks etdirən dövlət standartları, ilkin dövlət standartları, texniki şərtlər, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada tətbiq edilən beynəlxalq və regional, dövlətlərarası, eləcə də xarici dövlətlərin standartları;

3.11. **istehsalat vəziyyətinin qiymətləndirilməsi** - malın istehsalı üçün normativ sənədlərdə müəyyənləşdirilən və sertifikatlaşdırma zamanı yoxlanılan tələblərin sabitliyini

©AZSTAND –Bütün hüquqlar qorunur

LAYİHƏ

təmin edən zəruri şərtlərin mövcudluğunu müəyyən etmək məqsədilə sertifikatlaşdırma qurumu tərəfindən həyata keçirilən fəaliyyətlərin məcmusunu əks etdirən sertifikatlaşdırma sxeminin elementi;

3.12. **vahid məmulat**- ədədlə olan malların ayrı-ayrı nüsxələri;

3.13. **idxalatçı** – malları idxal edən şəxs;

3.14. **mal partiyası-** istehsalçısı, etiketlənməsi, istehsal tarixi, istifadə olunan xammalı və xüsusiyyətləri eyni olan mal;

3.15. **dövri qiymətləndirmə**- verilmiş uyğunluq sertifikatının qüvvədə saxlanılma imkanının qiymətləndirilməsi məqsədi ilə sertifikatlaşdırma qurumu tərəfindən həyata keçirilən qiymətləndirmə;

3.16. **seriya ilə istehsal edilən mal**- eyni texniki sənədlərə uyğun vahid texnoloji prosesdən istifadə etməklə dövri təkrar edilən partiyalarla istehsal olunan mal;

3.17. **istehsalçının sınaq laboratoriyası**- sınaqlar (tədqiqatlar) və ölçmələr aparan və istehsalçının mülkiyyətində və ya hüquqi şəxsin struktur bölməsində olub, onun adından fəaliyyət göstərən hüquqi şəxs;

3.18. **istehsalçı**- mülkiyyət formasından və təşkilati-hüquqi formasından asılı olmayaraq, satış üçün mal istehsal edən müəssisə, idarə, təşkilat və ya fərdi sahibkar;

3.19. **sifarişçi** - malın sertifikatlaşdırılmasına dair akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən quruma sifarişlə müraciət etmiş şəxslər;

3.20. **ekspert-auditor** - müəyyən bir sahədə xüsusi biliyə malik olan, malın müəyyən edilmiş tələblərə uyğunluğunun qiymətləndirilməsi üzrə işlərin həyata keçirilməsi üçün uyğunluğu qiymətləndirən qurum tərəfindən cəlb edilən fiziki şəxs;

3.21. **uyğunsuzluq** – malın (xidmətin, işin), prosesin, idarəetmə sisteminin, işçi heyətinin standartlaşdırma sahəsində normativ sənədlərin tələblərinə uyğun olmaması;

3.22. **istehsalat** – malın hazırlanması prosesi;

3.23. **mal nümunəsi** - tədqiq, sınaq və qiymətləndirilmə zamanı malın nümunəsi qismində konkret mal vahidi;

3.24. **malın eyniləşdirilməsi (identifikasiyası) -** sertifikatlaşdırılan (sertifikatlaşdırılmış) malın xüsusiyyətlərinin həmin mal növü (tipi) üçün standartlaşdırma sahəsi üzrə normativ sənədlərdə, mal haqqında texniki sənəd və məlumatlarda müəyyən edilmiş əlamətlərlə eyniliyini təsdiq edən prosedur;

3.25. **tip nümunəsi -** buraxılan (və ya buraxılması planlaşdırılan) eyni, xüsusiyyətli, xassəli və təyinatlı mal qrupundan seçilən əsas xüsusiyyətləri özündə toplayan nümunə;

3.26.**akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumun sertifikatlaşdırma üzrə Komissiyası** - akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumun~~un~~ fəaliyyətini əlaqələndirən, habelə uyğunluğun qiymətləndirilməsi obyektlərinin sertifikatlaşdırılması məsələlərinə baxmaq və sertifikatlaşdırma üzrə aparılan işlərin nəticələrinə dair qərarlar qəbul etmək üçün yaradılmış akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumun kollegial orqanı;

3.27. **mal layihəsi -** malın hazırlanması üçün zəruri olan texniki sənədlər, aparılan hesabatlar, tədqiqatlar (sınaqlar), maketlər, modellər, ekspermental nümunələr.

3.28. **xarici mənşəli uyğunluq sənədi -** xarici dövlətlərdə verilmiş və idxal olunan malların təhlükəsizliynə dair məcburi tələbləri müəyyənləşdirən xarici texniki reqlamentlərin və ya digər xarici texniki normativ hüquqi aktın tələblərinə uyğunluğunu təsdiq edən müəyyən formalı sənəd;

LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur

# 4 ÜMUMİ MÜDDƏALAR

4.1. Malın uyğunluğunun qiymətləndirilməsi akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar (bundan sonra - UQQ) tərəfindən həyata keçirilir.

4.2. Sifarişçi malın uyğunluğunun qiymətləndirilməsi üzrə akkreditasiya olunmuş UQQ-nin seçimində sərbəstdir.

4.3. Malın uyğunluğunun qiymətləndirilməsi proseduru üzrə müvafiq işlər UQQ-nin ekspert auditorları tərəfindən həyata keçirilir.

4.4. Standartlaşdırma sahəsində normativ sənədlərin tələblərinə uyğunluğun qiymətləndirilməsi könüllü xarakter daşıyır.

4.5. Uyğunluğun könüllü qiymətləndirilməsi üçün mal ilk növbədə, texniki reqlamentlərin tələblərinə uyğun olmalıdır. Texniki reqlamentlərin tələblərinə cavab verən və ya texniki reqlamentlərlə tənzimlənməyən malın standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsi sertifikatlaşdırma yolu ilə həyata keçirilir.

4.6. Ölkədə istehsal olunan və idxal olunan malların könüllü sertifikatlaşdırılması bu standartın tələblərinə uyğun olaraq müvafiq sertifikatlaşdırma sxemlərinə uyğun həyata keçirilir.

4.7. Malların uyğunluğun qiymətləndirilməsi proseduru bu standartın Əlavə A-da göstərilən doqquz sxemdən birinə müvafiq olaraq aparılır.

4.8. Malın sertifikatlaşdırılması sxemi onun tətbiqi şərtlərindən asılı olaraq sifarişçi ilə razılaşdırmaqla UQQ tərəfindən seçilir:

- **sxem 1s** – seriya ilə istehsal olunan mallar üçün;
- **sxem 2s** – keyfiyyəti idarəetmə sistemi və/və ya qida subyekti olan fiziki və hüquqi şəxslər üçün qida təhlükəsizliyi idarəetmə sistemi üzrə sertifiklaşdırılmış istehsalçının seriya ilə istehsal etdiyi mallar üçün;
- **sxem 3s**- partiya ilə istehsal olunan mallar üçün;
- **sxem 4s**- vahid mal (məmulat) üçün;
- **sxem 5s**- seriya ilə istehsal olunan mallar üçün - hazır malın tədqiqi və sınağı zamanı müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiq etmək tamamilə mümkün olmadığı və ya çətin olduğu hallarda;
- **sxem 6s**- keyfiyyəti idarəetmə sistemi və/və ya qida subyekti olan fiziki və hüquqi şəxslər üçün qida təhlükəsizliyi idarəetmə sistemi üzrə sertifiklaşdırılmış istehsalçının seriya ilə istehsal olunan mallar üçün- hazır malın tədqiqi və sınağı zamanı müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiq etmək tamamilə mümkün olmadığı və ya çətin olduğu halda;
- **sxem 7s**- seriyalı istehsal məqsədilə planlaşdırılan mürəkkəb mallar, eyni zamanda əhəmiyyətli dərəcədə malın modifikasiyası nəzərdə tutulduğu halda;
- **sxem 8s**- keyfiyyət və (və ya) qida təhlükəsizliyi idarəetmə sistemləri üzrə sertifikatlaşdırılmış seriyalı istehsal məqsədilə planlaşdırılan mürəkkəb mallar, eyni zamanda əhəmiyyətli dərəcədə malın modifikasiyası nəzərdə tutulduğu halda;
- **sxem 9s**- idxalçı ölkənin Azərbaycan Respublikası ilə xarici uyğunluq sənədlərinin qarşılıqlı tanınmaya dair ikitərəfli razılaşması olan ölkələrdən Azərbaycan Respublikasına vahid mal, məhdud partiya, partiya və seriya ilə idxal olduqda.

4.9 Malların uyğunluğunun qiymətləndirilməsi proseduru müəyyən edilmiş müvafiq sertifikatlaşdırma sxemindən asılı olaraq aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

4.9.1 Sifarişin və ona əlavə edilmiş sənədlərin təhlil edilməsi;

4.9.2 uyğunluğun qiymətləndirilməsi barədə qərarın qəbul edilməsi;

4.9.3 Sertifikatlaşdırma sxeminin seçilməsi;

4.9.4 UQQ tərəfindən malın eyniləşdirilməsi və sınaq üçün nümunənin seçilməsi (müvafiq sertifikatlaşdırma sxemində nəzərdə tutulduğu halda);

4.9.5 Malların standartlaşdırma üzrə normativ sənədin tələblərinə uyğunluğunun qiymətləndirilməsi məqsədilə akkreditasiyadan keçmiş sınaq laboratoriyasında sınağının aparılması (müvafiq sertifikatlaşdırma sxemində nəzərdə tutulduğu halda);

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

4.9.6 Malın layihəsinin tədqiqinin aparılması- uyğunluğun qiymətləndirilməsi proseduru üzrə müvafiq sertifikatlaşdırma sxemində nəzərdə tutulduğu halda;

4.9.7 UQQ tərəfindən malın tipinin təsdiqinin aparılması-uyğunluğun qiymətləndirilməsi proseduru üzrə müəyyən edilmiş müvafiq sertifikatlaşdırma sxemində nəzərdə tutulduğu halda;

4.9.8 UQQ tərəfindən istehsalat vəziyyətinin təhlilinin aparılması -uyğunluğun qiymətləndirilməsi proseduru üzrə müvafiq sertifikatlaşdırma sxemində nəzərdə tutulduğu halda;

4.9.9 Uyğunluğun qiymətləndirilməsi proseduruna uyğun olaraq təqdim edilmiş sənədlərin, o cümlədən müvafiq sxemə uyğun aparılmış laborator sınaq nəticələrinin uyğun olaraq uyğunluq sertifikatının verilməsi və ya verilməsindən imtina haqqında qərarın qəbul edilməsi;

4.9.10. UQQ tərəfindən malların standartlaşdırma üzrə normativ sənədlərdə müəyyən edilmiş tələblərə uyğunluğunun kağız üzərində yazılı və ya elektron formada hazırlanması və təsdiqi;

4.9.11. UQQ tərəfindən sertifikatlaşdırılmış malın dövri yoxlamasının həyata keçirilməsi - uyğunluğun qiymətləndirilməsi proseduru üzrə müvafiq sertifikatlaşdırma sxeminə uyğun olaraq sertifikatın qüvvədə olma müddəti bir ildən çox olduğu halda (ildə bir dəfə).

4.9.12. Uyğunluğu qiymətləndirən qurum malların uyğunluğunun qiymətləndirilməsinin nəticələrini əldə etdikdən sonra məhsulun sınaq müddətindən asılı olaraq 7 (yeddi) iş günündən gec olmayaraq sertifikatın verilməsi və ya sertifikatın verilməsindən imtina haqqında əsaslandırılmış qərar qəbul edir.

4.10. Uyğunluğun qiymətləndirilməsi prosedurlarının icrası zamanı malların tədqiqinə və ya sınaqlarına, habelə ixrac edən dövlətlərin istehsalçılarına məxsus obyektlərə baxışın keçirilməsinə sərf olunan müddət sertifikatın verilməsi ilə bağlı müddətə daxil edilmir.

4.11. Keyfiyyət və (və ya) qida təhlükəsizliyi idarəetmə sistemləri üzrə sertifiklaşdırılmış istehsalçının standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğun seriya ilə mal istehsal etmək imkanlarının qiymətləndirilməsi 2s, 6s, 8s sxemlərinə müvafiq olaraq sifarişçi tərəfindən təqdim edilən Əlavə D-də göstərilən məlumatların təhlili vasitəsilə həyata keçirilir.

4.12. Uyğunluğun qiymətləndirilməsi üçün təqdim edilən və uyğunluğun qiymətləndirilməsi proseduru ilə əlaqəli sənədlərin, həmçinin sertifikatın surətləri UQQ-də 5 ildən az ~~olmayaraq~~ olmayan müddətdə saxlanmalıdır.

4.13 Uyğunluq sertifikatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 oktyabr tarixli 377 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları”na uyğun olaraq hazırlanır, akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumun rəhbərinin (səlahiyyətli nümayəndəsinin) və uyğunluğu qiymətləndirən səlahiyyətli şəxsin imzası ilə təsdiqlənir.

4.14. Uyğunluğun qiymətləndirilməsi prosedurları və sertifikatlaşdırılma həyata keçirildikdən sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 oktyabr tarixli 377 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları”na uyğun olaraq mala uyğunluq nişanı vurula bilər.

4.15 Sifarişçi ilə qarşılıqlı razılıq əsasında mala müvafiq UQQ-yə məxsus uyğunluq nişanı vurula bilər.

LAYİHƏ

## 5 UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ SERTİFİKATLAŞDIRMA ÜÇÜN SİFARİŞ VƏ ONA ƏLAVƏ EDİLƏN SƏNƏDLƏR

5.1. Uyğunluğun qiymətləndirilməsi və sertifikatlaşdırma üçün sifarişçi UQQ-yə bu standartın tərkib hissəsi olan Əlavə E-də göstərilən forma üzrə kağız və ya elektron formatda sifariş təqdim edir.

5.2. Sifarişçi aşağıdakı sənədləri sifarişə əlavə edir:

5.2.1. **Seriya və partiya ilə istehsal olunan mallar üzrə:**


©AZSTAND –Bütün hüquqlar qorunur

5.2.1.1. sifarişçi hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və yaxud nümayəndəliyi olduqda, hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti;

5.2.1.2. sifarişçi fiziki şəxs olduqda, şəxsiyyət vəsiqəsinin surəti;

5.2.1.3 ərizəçini səlahiyyətli nümayəndə təmsil etdikdə onun səlahiyyətini təsdiq edən etibarnamənin əsli;

5.2.1.3. sifarişçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;

5.2.1.4. standartlaşdırma üzrə normativ sənədin rəsmi nüsxəsi;

5.2.1.5. mala dair konstruktor sənədləri (mal növünə və seçilmiş sxemə uyğun olaraq);

5.2.1.6. mala dair texnoloji sənədləri (mal növünə və seçilmiş sxemə uyğun olaraq);

5.2.1.7. mala dair istismar sənədləri (mal növünə və seçilmiş sxemə uyğun olaraq);

5.2.1.8. keyfiyyəti idarəetmə sisteminə dair sertifikatın surəti - 2,6,8-ci sxemlər üzrə tələb olunur;

5.2.1.9. keyfiyyəti idarəetmə sisteminə dair sertifikatı mövcud olan müəssisənin malı davamlı şəkildə buraxmaq qabiliyyətini təsdiqləyən məlumatı (Əlavə D üzrə tələb olunan məlumat) - 2,6,8-ci sxemlər üzrə tələb olunur;

5.2.1.10. akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında aparılmış sınaqların protokolları (mövcud olduqda);

5.2.1.11. materiallara, komplektləşdirici məmulatlara və ya məmulatların tərkib hissələrinə dair uyğunluq sertifikatları (mövcud olduqda);

5.2.1.12. sertifikatlaşdırılan malın növünə uyğun olaraq uyğunluğun qiymətləndirilməsi zamanı Azərbaycan Respublikasının normativ hüquqi aktlarında və ya texniki reqlamentlərdə nəzərdə tutulmuş digər sənədlər;

5.2.1.13. Qida məhsullarına münasibətdə istehsalçının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışı;

5.2.1.14. sertifikatlaşdırılan malın və fəaliyyət növlərinin xüsusiyyətlərindən asılı olaraq xüsusi razılıq (lisenziyalar).

**5.2.2. İdxal olunan mal partiyası üzrə:**

5.2.2.1. alqı-satqı müqaviləsi;

5.2.2.2. idxal olunan mallara dair hesab-faktura (invoys);

5.2.2.3. ərizəçini səlahiyyətli nümayəndə təmsil etdikdə onun səlahiyyətini təsdiq edən etibarnamənin əsli;

5.2.2.4. idxal olunan mala dair xarici mənşəli uğunluq sənədləri;

5.2.2.5. laboratoriyaların akkreditasiyası üzrə beynəlxalq təşkilata (İLAC- International Laboratory Accreditation Cooperation) üzv olan Akkreditasiya orqanları tərəfindən akkreditasiya olunmuş sınaq laboratoriyalarının sınaq nəticələri (mövcud olduqda);

5.2.2.6. malın istifadə təlimatı (Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulduqda);

5.2.2.7. sertifikatlaşdırılan malın növünə uyğun olaraq uyğunluğun qiymətləndirilməsi zamanı Azərbaycan Respublikasının normativ hüquqi aktlarında və texniki reqlamentlərdə nəzərdə tutulmuş digər sənədlər;

5.2.2.8. sertifikatlaşdırılan malın və fəaliyyət növlərinin xüsusiyyətlərindən asılı olaraq xüsusi razılıq (lisenziyalar).

5.3. Sifarişə əlavə edilən sənədlərin surətləri sifarişçinin imzası və/və ya möhürü ilə təsdiq edilməlidir (möhür olmadıqda, imzası ilə təsdiq edir). Xarici dildə təqdim olunmuş sənədlər azərbaycan dilinə tərcümə edilməlidir.

5.4. Uyğunluğu qiymətləndirən qurum ərizəçi tərəfindən təqdim olunmuş ərizəni qəbul edir və həmin gün qeydiyyata alır. Uyğunluğu qiymətləndirən qurum ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə olunmuş sənədlərin ən geci 3 iş günü ərzində bu standartın 5.2-5.3 bəndlərinin tələblərinə uyğunluğunu yoxlayır. Uyğunluğu qiymətləndirən qurum ərizədə və ona əlavə olunmuş sənədlərdə aradan qaldırılması mümkün olan və sertifikatın verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar etdikdə, ərizənin qeydiyyata alındığı tarixdən 2 (iki) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə ~~məlumatı~~ ərizəçiyə yazılı məlumat verir.

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

5.5. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman sertifikatın verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət sertifikatın verilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

5.6. Sifarişçi ərizədə və ona əlavə olunmuş sənədlərdə aşkar edilmiş çatışmazlıqları bu standartın 5.5-ci bəndində qeyd olunan müddətdə aradan qaldırmadıqda, ərizə baxılmamış saxlanılır və bu barədə 2 (iki) iş günü müddətində ərizəçiyə yazılı məlumat verilir.

5.7. Bu standartın 5.2-ci bəndlərində nəzərdə tutulmuş sənədlər sifarişçi tərəfindən təqdim olunduqda, sənədlərdə çatışmazlıqlar aşkar edilmədikdə, və ya aşkar edilmiş çatışmazlıqlar standartın 5.5-ci bəndində qeyd olunan müddətdə aradan qaldırıldıqda, malın sertifikatlaşdırılması barədə qərar qəbul edilir. Malın sertifikatlaşdırılması barədə qərarda aşağıdakılar göstərilir:

- sifarişçi haqqında məlumat;
− sertifikatlaşdırma sxemi;
− malın eyniləşdirilməsinin aparılması haqqında qeyd;
- malın adı, növü, markası, tipi;
− standartlaşdırma üzrə normativ sənədin işarəsi və adı;
− müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla sınaq laboratoriyasının (mərkəzinin) adı və əlaqə rekvizitləri (sertifikatlaşdırma sxemində nəzərdə tutulduqda);
− istehsalat vəziyyətinin təhlilini aparan UQQ-nin adı və əlaqə rekvizitləri (sertifikatlaşdırma sxemi ilə nəzərdə tutulduqda);
− mal layihəsini və ya mal tipini tədqiq edən icraçı haqqında müvafiq məlumatlar (sertifikatlaşdırma sxemi ilə nəzərdə tutulduqda);

5.8. Malın sertifikatlaşdırılması barədə qərar məsul icraçı və qurumun rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiqlənir.

5.9. Malın sertifikatlaşdırılması sifarişçi ilə UQQ arasında rəsmiləşdirilən müqavilə əsasında həyata keçirilir.

## 6 MALIN EYNİLƏŞDİRİLMƏSİ VƏ SINAQ ÜÇÜN NÜMUNƏLƏRİN SEÇİLMƏSİ

6.1. Uyğunluğun qiymətləndirilməsi və sertifikatlaşdırma məqsədləri üçün sınaqlar nümunənin seçilmə metoduna dair müvafiq normativ sənədə əsasən seçilən mal və ya tip nümunəsi üzərində aparılır.

6.2. Mal tipinin–nümunəsi eyni tipli istehsal sxemi və texnoloji proses üzrə eyni tipli xammaldan hazırlanan, identik quruluşa malik və eyni təhlükəsizlik tələblərinə uyğun olan və sertifikatlaşdırılması nəzərdə tutulan eyni tipli mallar üzrə nomenklaturası çoxluq təşkil edən maldan seçilir. Nümunəsi seçilən mal tipləri eyni normativ sənədin tələblərinə uyğun olmalıdır.

6.3. Sınaq üçün mal nümunəsinin seçilib götürülməsi eyni vaxtda olmaqla malın eyniləşdirilməsindən sonra həyata keçirilir.

6.4. Sınaq üçün mal nümunəsinin seçilib götürülməsi və eyniləşdirilməsinə dair müvafiq qaydada aktlar tərtib olunur.

6.5. Malın eyniləşdirmə aktının forması bu standartın Əlavə B-də, malın nümunə seçmə aktının forması isə Əlavə C-də göstərilmişdir.

6.6. İdxal olunan malın sertifikatlaşdırılması üçün malın eyniləşdirmə aktı tərtib edilir. Digər sertifikatlaşdırılan mallar üzrə mal eyniləşdirilməsi haqqında məlumatlar malın nümunə seçmə aktına daxil edilir.

6.7. Malın eyniləşdirmə aktında aşağıdakı məlumatlar əks olunmalıdır:

- sifarişçi haqqında məlumat (hüquqi şəxs olduqda tam adı, fiziki şəxs olduqda adı, soyadı, atasının adı);
- istehsalçı və ya təhcizatçı tərəfindən səlahiyyət verilmiş şəxsin tam adı;

LAYİHƏ

- fəaliyyət ünvanı;
- malın adı, tipi, markası və modeli;
- istehsalçı ölkənin adı;
- malın partiya və ya seriya nömrəsi;
- malın istehsal tarixi;
- malın yararlıq müddəti (son istifadə tarixi və saxlama müddəti);
- normativ sənədin işarəsi və adı;
- normativ sənədlərin tələblərinə uyğunluğunun təhlilinin nəticəsinə dair rəy (o cümlədən müvafiq mallar üzrə arqonoleptik göstəricilər);
- partiyanın miqdarı;
- qablaşdırmanın və taranın növü;
- ölçü vahidi;
- malı müşayiət edən sənədlərdə göstərilən digər məlumatlar.

6.8. Sınaq üçün nümunələrin seçilib götürülməsi, markalanması, plomblanması və nümunənin seçilib götürülməsinin sənədləşdirilməsi UQQ-nin qərarına uyğun olaraq onun nümayəndəsi tərəfindən həyata keçirilir.

6.9. Nümunələrin seçilməsi sifarişçinin iştirakı ilə bu standartın 6.12-ci bəndinə uyğun olaraq nümunə seçmə aktı tərtib edilməklə həyata keçirilir.

6.10. Malın nümunə seçmə aktında aşağıdakı məlumatlar əks olunmalıdır:
- mal nümunəsini götürən UQQ haqqında məlumat;
- malın yerləşdiyi ünvan;
- sifarişçi haqqında məlumat (hüquqi şəxs olduqda tam adı, fiziki şəxs olduqda adı, soyadı, atasının adı);
- istehsalçı və ya təhcizatçı tərəfindən səlahiyyət verilmiş şəxsin adı, soyadı, atasının adı;
- nümunə götürən UQQ-nin məsul nümayəndəsinin adı, soyadı, atasının adı;
- sertifikatlaşdırılması aparılan mala dair ümumi tələbləri müəyyənləşdirən normativ sənədin işarəsi və adı;
- mal nümunəsinin seçilib götürülməsinə dair normativ sənədinin işarəsi və adı;
- malın adı, tipi, markası və modeli;
- ölçü vahidi;
- partiyanın miqdarı;
- seçilmiş nümunələrin sayı;
- vizual təhlil nəticələrinə dair məlumat;
- malın eyniləşdirilməsi haqqında məlumat (malın eyniləşdirilməsi nümunə götürmə ilə eyni vaxtda aparıldığı halda);
- malın istehsal tarixi;
- malın yararlıq müddəti (son istifadə tarixi və saxlama müddəti);
- qablaşdırmanın və taranın növü;
- malın saxlanma şəraiti və yeri;

6.11. Müvafiq texniki reqlamentdə müəyyən edilmiş hallar istisna olmaqla, sertifikatlaşdırmanın aparılması üçün nümunənin seçilməsi sifarişçi ilə razılaşdırmaqla sertifikatlaşdırmanı həyata keçirən UQQ-nin həvalə etdiyi digər UQQ və (və ya) akkreditasiya sahəsinə aid olan sınaq laboratoriyası tərəfindən aparıla bilər.

6.12. Mal nümunəsinin seçilib götürülməsi və eyniləşdirilməsi prosesində malın saxlama şəraiti də yoxlanılır və bu barədə məlumat nümunə seçmə aktına daxil edilir.

6.13. Malın nəzarət nümunələri UQQ-nin nümayəndəsi tərəfindən müvafiq qaydada plomblanır və nümunə seçmə aktının bir nüsxəsi ilə birlikdə sifarişçiyə saxlanca verilir. Aktın ikinci nüsxəsi UQQ-də saxlanılır. Nəzarət nümunələrinin saxlama müddətini UQQ müəyyən edir və nümunə seçmə aktında göstərir.

6.14. Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları ilə nəzərdə tutulduğu hallarda malların üzərində istehsal tarixi və yararlılıq müddəti göstərilmədikdə, belə maldan nümunə seçilmir və mal sertifikatlaşdırmaya qəbul edilmir.

©AZSTAND –Bütün hüquqlar qorunur
LAYİHƏ

6.15. Malın eyniləşdirilməsi prosesində uyğunsuzluq müəyyən edildikdə müqavilə şərtlərinə uyğun olaraq sertifikatlaşdırma üzrə işlər dayandırılır və həmin gün bu barədə sifarişçiyə kağız və ya elektron formada yazılı məlumat verilir. Sifarçi həmin uyğunsuzluqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman sertifikatın verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət sertifikatın verilməsi müddətinə daxil edilmir. Uyğunsuzluqların aradan qaldırılması barədə sifarişçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

6.16. Sifarişçi tərəfindən malın eyniləşdirilməsi ilə bağlı uyğunsuzluqların aradan qaldırılması mümkün olmadıqda, sertifikatlaşdırma üzrə işlərə xitam verilir və sifarişçiyə kağız və ya elektron formada yazılı məlumat verilir.

6.17. Mal nümunələrinin sınaq laboratoriyasına çatıdırılması sifarişçi, tərəflər arasında rəsmləşdirilmiş müqavilədə nəzərdə tutulmuş hallarda isə UQQ tərəfindən həyata keçirilir.

## 7 MALIN SINAQLARININ APARILMASI

7.1. Uyğunluğun qiymətləndirilməsi prosesində aparılan laborator sınaqlar müvafiq malın standatlaşdırma sahəsində normativ sənəddə göstərilən tələblərə uyğunluğunun müəyyən edilməsi ~~üçün~~ məqsədilə həyata keçirilir.

7.2. Malın sınaqları “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş sınaq laboratoriyasında həyata keçirilir.

7.3. Sınaqların aparılması ~~üzrə~~ ilə bağlı xərclər sifarişçi tərəfindən ödənilir.

7.4. Sertifikatlaşdırılan malın laborator sınaqları sifarişçiyə və ya istehsalçıya məxsus olan akkreditasiya olunmuş sınaq laboratoriyasında aparıldıqda, həmin sınaq prosesində sertifikatlaşdırmanı həyata keçirən UQQ-nin ekspert-auditoru iştirak edir, sınaqların nəticələrinə dair protokolu imzası ilə təsdiqləyir və laborator sınaq nəticələrinin obyektivliyinə görə sınaq laboratoriyası ilə yanaşı UQQ də məsuliyyət daşıyır.

7.5. Qüvvədə olan müvafiq normativ hüquqi akların tələblərinə əsasən məcburi sertifikatlaşdırılmalı və akkreditasiya olunmuş laboratoriyada sınağının aparılması məcburi olan ahallar istisna olmaqla sertifikatlaşdırılması nəzərədə tutulan malın sınaqları üçün akkreditasiya olunmuş sınaq laboratoriyası olmadıqda malın sınaqları akkreditasiya olunmamış sınaq laboratoriyasında həyata keçirilə bilər. Bu halda həmin sınaq prosesində sertifikatlaşdırmanı həyata keçirən UQQ-nin ekspert-auditoru iştirak edir, sınaqların nəticələrinə dair protokolu imzası ilə təsdiqləyir və laborator sınaq nəticələrinin obyektivliyinə görə sınaq laboratoriyası ilə yanaşı UQQ də məsuliyyət daşıyır.

7.6. Sertifikatlaşdırılan malın sınaqlarının aparılmasına akkreditasiya sahələrinə müvafiq olaraq bir neçə sınaq laboratoriyası cəlb edilə bilər.

7.7. Sertifikatlaşdırılan malın tərkibinə daxil olan komplektləşdirici hissələr üçün akkreditasiya olunmuş sınaq laboratoriyasında aparılmış sınağın protokolları təqdim edildikdə və standartlaşdırma üzrə normativ sənədlərdə xüsusi tələb nəzərdə tutulmadıqda həmin hissələrin göstəricilərinin yoxlanılması üçün təkrar sınaq aparılmır.

7.8. Sertifikatlaşdırlan malın hazırlanması zamanı istifadə olunan və istehsal prosesi zamanı dəyişməyən xammal və materiallar üçün akkreditasiya olunmuş sınaq laboratoriyasında aparılmış sınağın protokolları təqdim edildikdə və standartlaşdırma üzrə normativ sənədlərdə xüsusi tələb nəzərdə tutulmadıqda, həmin hissələrin göstəricilərinin yoxlanması üçün təkrar sınaq aparılmır.

7.9. Sifarişçi və istehsalçı sertifikatlaşdırılan malın hər hansı bir göstəricisi üçün akkreditasiya olunmuş sınaq laboratoriyasında aparılmış sınaq protokolunu təqdim etdikdə, həmçinin standartlaşdırma üzrə normativ sənədlərdə xüsusi tələb nəzərdə tutulmadıqda, həmin göstərici üzrə aşağıdakı şərtlər istisna olmaqla, təkrar sınaq aparılmır:

- sertifikatlaşdırma zamanı malın konstruksiyasında və tərkibində standatlaşdırma sahəsində normativ sənəddə və digər normativ hüquqi aktda müəyyənləşdirilən tələblərə təsir edən dəyişikliklər olmadıqda;


©AZSTAND –Bütün hüquqlar qorunur
LAYİHƏ

- sertifikatlaşdırma zamanı mala dair tələbləri müəyyən edən sənədlərdə dəyişikliklər olmadıqda;

- nümunənin seçilib götürülməsi UQQ-nin və onun həvalə etdiyi digər UQQ-nin nümayəndəsi tərəfindən aparıldıqda;

- standatlaşdırma sahəsində normativ sənəddə və digər müvafiq normativ hüquqi aktda müəyyən edilmiş tələblərə uyğun olmadığı ilə bağlı UQQ-də hər hansı məlumat olmadıqda.

7.10. 7.4-7.6 bəndlərində nəzərdə tutulan şərtlər bir il (1 il) müddətindən çox olmayan sınaq protokoluna şamil edilir.

7.11. Malın sertifikatlaşdırılması üçün aparılan laborator sınaqlarda müvafiq standartlaşdırma üzrə normativ sənəddə göstərilən sınaq üsullarından və ya metodikalarından istifadə edilir.

7.12. UQQ-nin özünə məxsus sınaq laboratoriyası olmadıqda malın sertifikatlaşdırılması üçün aparılan sınaqlar müvafiq müqavilə əsasında aidiyyəti qanunvericiliyin tələbləri nəzərə alınmaqla digər sınaq laboratoriyasında həyata keçirilir.

7.13. Malın sertifikatlaşdırılması üçün aparılan laborator sınaqlar üzrə müqaviləyə məxfilik və mübahisələrin həlli ilə bağlı müddəalar və şərtlər də daxil edilir.

7.14. Sertifikatlaşdırılma ilə bağlı sınaqların aparılması üçün bu standartın tələblərinə uyğun seçilmiş mal nümunəsi, nümunə seçmə aktı, həmin mala dair normativ sənədin surəti sınaq laboratoriyasına təqdim edilməlidir.

7.15. İstehsalat vəziyyətinin təhlili zamanı istehsalçı tərəfindən təqdim edilən və istehsal prosesi çərçivəsində aparılan qəbul və dövri sınaqların protokolları aşağıdakı şərtlər daxilində sertifikatlaşdırma prosesində aparılan sınaq protokolları ilə əvəz edilə bilər:

- qəbul və ya dövri sınaqlar akkreditasiya olunmuş laboratoriyada aparıldıqda;

- sertifikatlaşdırma predmeti olan mal partiyası seriya istehsal üçün nəzərdə tutulmuş avadanlıqda istehsal edildikdə;

- UQQ-nin ekspert-auditoru tərəfindən bu standartın Əlavə B-yə uyğun eyniləşdirmə aktı təqdim edildikdə;

- UQQ-də sertifikatlaşdırılan malın təhükəsizliyi, keyfiyyəti və sifarişçi tərəfindən təqdim edilən sınaq protokollarına dair şübhə yaradan hallar və ya məlumatlar olduğu halda istehsal yerində UQQ-nin nümayəndəsinin iştirakı ilə malın təkrar sınaqları aparılır və yeni protokol tərtib edilir.

7.16. Laboratoriyanın sınaq protokolu aparılan sınağın nəticələrindən asılı olmayaraq sifarişçiyə və sınaqlar sertifikatlaşdırma ilə bağlı olduqda isə UQQ-yə göndərilir.

7.17. Sınaqların nəticələri mənfi olduqda, müqavilə şərtlərinə uyğun olaraq sertifikatlaşdırma üzrə işlər dayandırılır və bu barədə sifarişçiyə kağız və ya elektron formada yazılı məlumat verilir.

7.18. Sınaq üçün təqdim edilən mal nümunələri sınaq laboratoriyasında müvafiq malın saxlama müddətləri istisna olmaqla, ən azı bir ay müddətində saxlanılır. Aparılmış sınaqların nəticələri mübahisələndirildiyi halda isə sınaq laboratoriyasının qərarına uyğun olaraq mübahisə prosesi bitənədək saxlanıla bilər.

7.19. Sifarişçi tərəfindən uyğunsuzluqların aradan qaldırılması mümkün olmadıqda, sertifikatlaşdırma üzrə işlərə xitam verilir və sifarişçiyə bu barədə kağız və ya elektron formada yazılı məlumat verilir.

7.20. Sınaq keçirildikdən sonra dağıdılmamış, tamlığına və ümumi vəziyyətinə heç bir xələl gətirilməmiş mal nümunəsi sifarişçiyə geri qaytarılır. Mal nümunəsinin (lərinin) sifarişçiyə qaytarılması təhvil-təslim aktı ilə rəsmiləşdirilir.

7.21. Bu standartın 6.14-ci bəndinə uyğun olaraq, şahid nümunə~~si~~nin UQQ tərəfindən müəyyən edilmiş müddət ərzində saxlanmasına görə məsuliyyəti sifarişçi daşıyır.

7.22. Sifarişçi sınaqların nəticələrindən və məhsulun sertifikatlaşdırmasında imtina barədə UQQ-nin qərarından (hərəkətsizliyindən) inzibati qaydada və ya məhkəmə qaydasında şikayət edə bilər.

## 8 MALIN LAYİHƏSİNİN TƏDQİQİ

©AZSTAND –Bütün hüquqlar qorunur

LAYİHƏ

8.1. Malın layihəsinin tədqiqi proseduru seriya ilə istehsal olunacaq malın sertifikatlaşdırılması prosesində tətbiq edilir.

8.2. Malın layihəsinin tədqiqi sertifikatlaşdırma predmeti olan mal, onun istehsalı ilə bağlı aparılan hesabatların nəticələri, maketlərin, modellərin sınağı, malların təcrübə nümunələri haqqında təqdim edilən digər texniki sənədlərin təhlili vasitəsilə UQQ tərəfindən aparılır.

8.3. Texniki sənədlərdə əsas təhlükəsizlik tələbləri və layihə məlumatları, eskiz-sxemlər, istehsal üsulları, malın istifadəsi prinsipləri, istifadə olunan müvafiq normativ hüquqi aktların və normativ sənədlərin siyahısı, risklərin təhlili və qiymətləndirilməsi hesabatları, qəbul edilmiş texniki həllərin təsviri qiymətləndirilir.

8.4. Mal layihəsinin təqdiqi nəticələrinə əsasən rəsmləşdirilən yekun rəy aşağıdakıları ehtiva edir:

- mal layihəsinin tədqiqini aparan UQQ haqqında məlumat;
- sifarişçi haqqında məlumat (tam adı və əlaqə rekvizitləri);
- malın adı, tipi, nümunəsi markası, modeli və onun eyniləşdirilməsini aparan şəxs haqqında məlumat;
- istehsalçının tam adı, yerləşdiyi yer, malın istehsalı həyata keçirilən ünvan;
- sertifikatlaşdırma aparılan mala dair tələbləri müəyyənləşdirən normativ hüquqi aktın adı və ya normativ sənədin işarəsi və adı;
- mala dair texniki tələbləri müəyyənləşdirən sənədlərin tələblərinin həmin mal üçün təqdim edilmiş texniki sənədlərdə göstərilən məlumatlarla və (və ya) faktiki göstəriciləri ilə tədqiqat və ya sınaq nəticəsində əldə edilmiş nəticələrin müqayisəli təhlili;
- malların təhlükəsiz istismarı üçün təqdim olunan sənədlərdə göstərilən xüsusiyyətlərlə həmin mala dair qüvvədə olan normativ hüquqi aktlarda və normativ sənədlərdə göstərilən tələblərə uyğunluğu haqqında məlumat;
- malın layihəsinin həmin mala dair qüvvədə olan normativ hüquqi aktlarda və normativ sənədlərdə göstərilən tələblərə uyğunluğu haqqında məlumat;
- nömrə və tarix.

8.5. Mal layihəsinin tədqiqinin nəticələrinə dair yekun rəy layihənin tədqiqini aparan UQQ-nin ekspert auditoru tərəfindən imzalanır.

8.6. Mal layihəsinin tədqiqinin nəticələri mənfi olduqda, müqavilə şərtlərinə uyğun olaraq sertifikatlaşdırma üzrə işlər dayandırılır və bu barədə sifarişçiyə kağız və ya elektron formada yazılı məlumat bildirilir.

8.7. Sifarişçi tərəfindən uyğunsuzluqların aradan qaldırılması mümkün olmadıqda, sertifikatlaşdırma üzrə işlərə xitam verilir və sifarişçiyə bu barədə kağız və ya elektron formada yazılı məlumat verilir.

## 9 MALIN TİPİNİN TƏSDİQİ

9.1. Malın tipinin təsdiqi sifarişçinin təqdim etdiyi sənədlərə müvafiq olaraq UQQ tərəfindən aşağıdakı üsullardan biri vasitəsilə həyata keçirilir:

- buraxılması planlaşdırılan malın məcmusunun bir nümunəsi qismində planlaşdırılılmış istehsal üçün tipin təsdiqi;
- buraxılan mala dair normativ sənədlərin və təsdiqedici sənədlərin təhlili, tipin və ya malın kritik komponentlərinin təsdiqi.

9.2. Tipin təsdiqi zamanı aşağıdakı prosedurlar həyata keçirilir:

- malın tipin təsdiqi müvafiq normativ sənədlərin tələblərinə uyğun hazırlanmasının qiymətləndirilməsi;
- müvafiq normativ sənədlərin tələblərinə uyğun və normativ sənədlərdən istifadə etmədən layihələndirilən nümunənin elementlərinin müəyyən edilməsi;

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

- istehsalçı tərəfindən buraxılan mala dair texniki reqlamentlərin, normativ hüquqi aktların və normativ sənədlərin tətbiqinin düzgünlüyünün yoxlanılması üçün zəruri sınaqlar həyata keçirilir;

- istehsalçı tərəfindən texniki həllərin buraxılan mala dair texniki reqlamentlərin, normativ hüquqi aktların və normativ sənədlərin müəyyən edilmiş texniki tələblərə (texniki normativ hüquqi aktlar tətbiq edilmədikdə) uyğunluğunun yoxlanılması üçün zəruri sınaqlar həyata keçirilir;

9.3. Texniki sənədlərdə əsas təhlükəsizlik tələbləri və layihə məlumatları, eskiz-sxemlər, istehsal üsulları, malın istifadəsi prinsipləri, istifadə olunan müvafiq normativ hüquqi aktların və normativ sənədlərin siyahısı, risklərin təhlili və qiymətləndirilməsi hesabatları, qəbul edilmiş texniki həllərin təsviri qiymətləndirilir.

9.4. Malın tipinin təqdiqi nəticələrinə əsasən rəsmləşdirilən yekun rəy aşağıdakıları ehtiva edir:

- mal layihəsinin tədqiqini aparan UQQ haqqında məlumat;

- sifarişçi haqqında məlumat (tam adı və əlaqə rekvizitləri);

- malın adı, tipi, markası və modeli və onun eyniləşdirilməsini aparan şəxs haqqında məlumat;

- istehsalçının tam adı, yerləşdiyi yer, malın istehsalı həyata keçirilən ünvan;

- sertifikatlaşdırma aparılan mala dair tələbləri müəyyənləşdirən normativ hüquqi aktın adı və ya normativ sənədin işarəsi və adı;

- mala dair texniki tələbləri müəyyənləşdirən sənədlərin tələblərinin həmin mal üçün təqdim edilmiş texniki sənədlərdə göstərilən məlumatlarla və (və ya) faktiki göstəricilərilə tədqiqat və ya sınaq nəticəsində əldə edilmiş nəticələrin müqayisəli təhlili;

- malın təhlükəsiz istismarı üçün təqdim olunan sənədlərdə göstərilən xüsusiyyətlərlə həmin mala dair qüvvədə olan normativ hüquqi aktlarda və normativ sənədlərdə göstərilən tələblərə uyğunluğu haqqında məlumat;

- malın tipinin həmin mala dair qüvvədə olan normativ hüquqi aktlarda və normativ sənədlərdə göstərilən tələblərə uyğunluğu haqqında məlumat;

- nömrə və tarix.

9.5. Malın tipinin tədqiqinin nəticələrinə dair yekun rəy layihənin tədqiqini aparan UQQ-nin ekspert auditoru tərəfindən imzalanır.

9.6. Malın tipinin tədqiqinin nəticələri mənfi olduqda, müqavilə şərtlərinə uyğun olaraq sertifikatlaşdırma üzrə işlər dayandırılır və bu barədə sifarişçiyə kağız və ya elektron formada yazılı məlumat bildirilir.

9.7. Sifarişçi tərəfindən uyğunsuzluqların aradan qaldırılması mümkün olmadıqda, sertifikatlaşdırma üzrə işlərə xitam verilir və sifarişçiyə bu barədə kağız və ya elektron formada yazılı məlumat verilir.

## 10 İSTEHSALAT VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

10.1. İstehsalat vəziyyətinin təhlili seriya ilə istehsal olunan malın 1s, 5s, 7s sertifikatlaşdırma sxemləri üzrə sertifikatlaşdırılması aparıldıqda həyata keçirilir.

10.2. İstehsalat vəziyyətinin qiymətləndirilməsi proseduru çərçivəsində malı davamlı şəkildə istehsal etmək imkanları qiymətləndirilir.

10.3. İstehsalat vəziyyətinin qiymətləndirilməsi UQQ-nin təyin etdiyi nümayəndələrindən ibarət qiymətləndirmə qrupu tərəfindən həyata keçirilir.

10.4 İstehsalat vəziyyətinin qiymətləndirilməsi aşağıdakılara əsasən aparılır:

- standartlaşdırma üzrə normativ sənədlər (rəsmi nəşrləri);

- istehsalatda iştirak edən personalın (heyətin) səriştəliliyi (ixtisas, müvafiq sahədə iş təcrübəsi, sertifikat və s);

- istehlakçılarla qarşılıqlı əlaqə (istehlakçıların tələbləri, şikayətləri, rəy və təklifləri və s);

− bu standartın 6-cı bəndinə uyğun olaraq malın eyniləşdirilməsi və izlənilməsi (xammalın girişindən hazır malın buraxılışana qədər olan texnoloji istehsalat prosesi);

©AZSTAND –Bütün hüquqlar qorunur

− avadanlığın texniki xidməti və təmiri;

−müəssisə tərəfindən bəyan edilən istehsalat texnologiyasına riayət olunması;

− xammal, materiallar və satın alınan komplektləşdirici məmulatların giriş nəzarəti;

− istehsalata nəzarət sistemi və sınaqların aparılması;

− nəzarət, ölçmə və sınaq avadanlıqlarının idarə olunması;

− düzəldici fəaliyyətlər;

− malın saxlanması, qablaşdırılması, etiketlənməsi və konservasiyası.

10.5. İstehsalatın vəziyyətinin qiymətləndirilməsinin nəticələrinə dair qiymətləndirmə proseduru yekunlaşdıqdan sonra 5 iş günü müddətində istehsalatın vəziyyətinin qiymətləndirilməsi haqqında hesabat hazırlanır və qiymətləndirmə qrupu tərəfindən rəsmləşdirilir.

10.6. İstehsalat vəziyyətinin qiymətləndirilməsi haqqında hesabat qiymətləndirmə üzrə əsaslandırılmış qərarın qəbul edilməsi üçün dəqiq, lokanik qeydlər əks olunmaqla aşağıdakı məlumatları ehtiva edir:

- istehsalatın vəziyyətinin qiymətləndirilməsini aparan UQQ haqqında məlumat;
- sifarişçi haqqında məlumat (adı və əlaqə rekvizitləri);
- malın istehsalçısı, istehsalat vəziyyətinin qiymətləndirilməsi aparılan sahələrin (obyektlərin) ünvanları haqqında məlumat;
- sertifikatlaşdırılan mal haqqında, o cümlədən onun eyniləşdirilməsini təsdiq edən sənəd haqqında məlumat (müvafiq təsdiqedici sənəd təqdim etməklə);
- istehsalat vəziyyətinin qiymətləndirilməsinin aparılma tarixi(ləri);
- istehsalat vəziyyətinin qiymətləndirilməsinin aparılması üçün əsas (sifariş, sertifikatlaşdırma sxemi və.s);
- sertifikatlaşdırılması aparılan mala dair müvafiq standartlaşdırma üzrə normativ sənədin işarəsi və adı;
- qiymətləndirmə qrupunun tərkibi haqqında məlumat (adı, soyadı, atasının adı və vəzifəsi);
- sertifikatlaşdırılan mala dair texniki tələblərin yerinə yetirilməsi üzrə qiymətləndirmənin nəticələrinə dair məlumat;
- istehsalat vəziyyətinin qiymətləndirilməsi prosesində müəyyən edilmiş müşahidələr və sübutlar haqqında məlumatlar (uyğunluqlar və uyğunsuzluqlar (təfərrüatlı şəkildə məlumatlar) və zəruri hallarda təsdiqedici faktlar);
- istehsalatın davamlı olaraq müəyyən edilmiş texniki tələblərə cavab verən malı istehsal etmək imkanları (və ya etməmək) üzrə yekun nəticələrə dair məlumatlar;
- hesabatın əlavələrinin siyahısı (mövcud olduqda);
- istehsalat vəziyyətinin qiymətləndirilməsi prosesində əldə edilən digər məlumatlar.

10.7. İstehsalat vəziyyətinin qiymətləndirilməsi haqqında hesabatda zəruri düzəldici tədbirlərin işlənib hazırlanmasına dair məlumatlar (ehtiyac olduqda), həmçinin istehsalat vəziyyətinin qiymətləndirilməsi prosesində aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması müddətləri və bu barədə sənədləşdirilmiş məlumatın UQQ-yə təqdim edilməsinin son tarixi, o cümlədən onların yaranma səbəbləri, UQQ tərəfindən düzəldici tədbirlərin səmərəliliyinin yoxlanılması metodu haqqında sənədləşdirilimiş məlumatlar göstərilir.

10.8. İstehsalat vəziyyətinin qiymətləndirilməsi prosesində aşkar edilmiş uyğunsuzluqların sayından, onların əhəmiyyətindən, habelə təqdim olunan sübutlara inam dərəcəsindən və onların məlumatlılıq səviyyəsindən asılı olaraq, düzəldici tədbirlərin həyata keçirilməsinin yoxlanılması metodu müəyyən edilir.

10.9. İstehsalat vəziyyətinin qiymətləndirilməsi haqqında hesabat UQQ-nin ekspert qrupu tərəfindən imzalanaraq təsdiqlənir.

10.10. İstehsalat vəziyyətinin qiymətləndirilməsi haqqında hesabat və hesabata əlavə edilən sənədlər barədə Sifarişçiyə məlumat verilir və sifarişçi sənədlərlə tanış olduğunu (rəhbərin və ya onun nümayəndəsinin) imzası ilə təsdiq edir.

10.11. İstehsalat vəziyyətinin qiymətləndirilməsi haqqında hesabat iki nüsxədə tərtib edilir. Nüsxələrdən biri UQQ-də saxlanılır digəri isə sifarişçiyə təqdim edilir.


©AZSTAND –Bütün hüquqlar qorunur
LAYİHƏ

10.12. İstehsalat vəziyyətinin qiymətləndirilməsi üzrə nəticələri mənfi olduqda, müqavilə şərtlərinə uyğun olaraq sertifikatlaşdırma üzrə işlər dayandırılır, sifarişçi tərəfindən uyğunsuzluqların aradan qaldırılması mümkün olmadıqda isə sertifikatlaşdırma üzrə işlərə xitam verilir və hər iki halda sifarişçiyə bu barədə kağız və ya elektron formada yazılı məlumat verilir.

## 11 SERTİFİKATLAŞDIRMA NƏTİCƏLƏRİNİN TƏHLİLİ VƏ UYĞUNLUQ SERTİFİKATININ VERİLMƏSİ BARƏDƏ QƏRARIN QƏBUL EDİLMƏSİ

11.1. Uyğunsuzluqlar olduğu halda sertifikatlaşdırma üzrə işlərin bərpası məqsədilə sifarişçi sertifikatlaşdırma işlərinin yerinə yetirilməsi üçün müqavilə çərçivəsində aşağıdakı fəaliyyətləri həyata keçirməlidir:

- aşkar edilmiş uyğunsuzluqların və onların səbəblərinin aradan qaldırılması üzrə düzəldici tədbirləri (bundan sonra-düzəldici tədbirlər) hazırlamalı və onları UQQ ilə razılaşdırmalıdır;
- düzəldici tədbirlər razılaşdırılmış müddət çərçivəsində həyata keçirilməli və UQQ-ni bu barədə müvafiq qaydada məlumatlandırmalıdır.

Düzəldici tədbirlərin həyata keçirilməsi üzrə məlumatlar və prosedurlar sənədləşdirilməlidir.

11.2. UQQ-nin qiymətləndirmə qrupu  düzəldici tədbirlərin sənədləşdirilmiş faktlarla birlikdə təhlilini aparır. Sertifikatlaşdırma prosesi çərçivəsində təqdim edilən sənədlərdə nəzərdə tutulduğu halda UQQ düzəldici tədbirlərin həyata keçirilməsi vəziyyətini aidiyyəti müəssisədə yoxlaya bilər.

11.3. Sertifikatlaşdırma prosesində aşkar edilmiş uyğunsuzluqların 90 təqvim günü müddətində aradan qaldırılması mümkün olmadıqda və düzəldici tədbirlərin həyata keçirilməsi barədə sifarişçi tərəfindən UQQ-yə məlumat verilmədikdə, sertifikatlaşdırma işlərinə xitam verilməsi haqqında qərar qəbul edilir və sifarişçiyə bu barədə kağız və ya elektron formada məlumat verilir.

11.4. Düzəldici tədbirlərin həyata keçirilməsi üzrə təhlilin nəticələri müsbət olduqda, UQQ sertifikatlaşdırma üzrə işlərin bərpası haqqında qərar qəbul edir.

11.5. Qiymətləndirmə qrupu düzəldici tədbirlərin həyata keçirilməsi üzrə təhlilin müsbət nəticələrini təqdim etdiyi gündən 5 iş günü müddətində UQQ-nin sertifikatlaşdırma üzrə Komissiyasında aşağıdakı sənədlərə baxılır (malın sertifikatlaşdırılması sxeminə müvafiq olaraq) və təhlil edilir:

- sınaq protokolları. Malın sınağı ayrı-ayrı göstəricilər üzrə müxtəlif akkreditasiya olunmuş sınaq laboratodiyalarında aparıldıqda, sınaq nəticələrinə dair bütün protokollar təqdim edilməlidir;
- istehsalat vəziyyətinin təhlili haqqında hesabat;
- keyfiyyət idarəetmə sistemi və/və ya qida subyekti olan fiziki və hüquqi şəxslər üçün qida təhlükəsizliyi idarəetmə sistemi üzrə uyğunluq sertifikatı;
- malın tipinin tədqiqi nəticələri üzrə yekun rəy;
- sifarişçi tərəfindən həyata keçirilən düzəldici tədbirlər haqqında sənədləşdirilmiş məlumatlar;
- sertifikatlaşdırılma prosesi üzrə baxılan və rəsmiləşdirilən digər sənədləri.

11.6. UQQ-nin sertifikatlaşdırma üzrə Komissiyası təqdim edilən məlumatların təhlili əsasında uyğunluq sertifikatının verilməsi (verilməsindən imtina) haqqında qərar qəbul edir. Uyğunluq sertifikatının verilməsindən imtina barədə qərar qəbul edildikdə, həmin qərarın bir nüsxəsi sifarişçiyə göndərilir.

11.7. Malın sertifikatklaşdırılması prosesində iştirak edən UQQ-nin qiymətləndirmə qrupunun üzvləri və ya nümayəndələri Komissiyanın işində iştirak etmirlər.

11.8. 2s, 6s və 8s sertifikatlaşdırma sxemləri üzrə seriya ilə istehsal olunan malın uyğunluq sertifikatının qüvvədə olma müddəti keyfiyyət idarəetmə sistemi və/və ya qida

©AZSTAND –Bütün hüquqlar qorunur

LAYİHƏ

təhlükəsizliyi idarəetmə sisteminin uyğunluq sertifikatının qüvvədə olma müddətinə uyğun müəyyən edilir.

11.9. İstehsalçının bir və ya bir neçə ölkədə yerləşən müxtəlif müəssisələrində eyni vaxtda buraxılan seriya ilə istehsal olunan mal üçün uyğunluq sertifikatı aşağıdakı hallarda bütün mallara verilə bilər:

- sertifikatlaşdırılan malın ən geniş və mürəkkəb nomenklaturası üzrə böyük həcmdə istehsal edən bir və ya bir neçə müəssisədə müsbət nəticələr əldə etməklə aparılan istehsalat vəziyyətinin qiymətləndirilməsi ;
- sertifikatlaşdırma prosesində uyğunluğun qiymətləndirilməsi çərçivəsində malın sınaq nəticələri müsbət olan nümunələrinin sınağı;
- hər bir müəssisədə keyfiyyəti idarəetmə sistemi və/və ya qida təhlükəsizliyi idarəetmə sisteminin tətbiqi;
- müəssisələrdə istehsalat vəziyyətinin davamlı olaraq təhlilinin aparılması üzrə sifarişçi və UQQ tərəfindən razılaşdırılmış qrafikin olması.

## 12 UYĞUNLUQ SERTİFİKATININ VERİLMƏSİ

12.1. Malın uyğunluq sertifikatının verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 oktyabr tarixli 377 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi qaydaları”nda göstərilmiş qaydada verilir. Uyğunluq sertifikatının blankının forması Əlavə F-də göstərilmişdir.

12.2 Malın uyğunluq sertifikatı qüvvədə olma müddəti müvafiq sertifikatlaşdırma sxeminə uyğun olaraq Əlavə A-ya uyğun olaraq müəyyən edilir.

12.3UQQ tərəfindən verilən uyğunluq sertifikatı haqqında aşağıdakı məlumatlar UQQ-nin rəsmi internet saytında yerləşdirilir:

- sertifikat sahibinin adı və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;
- sertifikatın qeydiyyat nömrəsi;
- sertifikatın qüvvədə olma müddəti;
- sertifikatlaşdırılan malın adı;
- sifarişçinin tam adı;
- normativ sənədin işarəsi və adı;
- tətbiq edilmiş sertifikatlaşdırma sxemi.

## 13 SERTİFİKATLAŞDIRILAN MALIN DÖVRİ QİYMƏTLƏNDİRİLMƏSİ

13.1. Uyğunluq sertifikatının qüvvədə olduğu müddət ərzində və malın sertifikatlaşdırılması sxemində nəzərdə tutulduğu halda UQQ müqavilə şərtlərinə uyğun olaraq sertifikatlaşdırılmış malın uyğunluq sertifikatında göstərilən müvafiq standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun saxlanmasını təmin etmək məqsədilə dövri qiymətləndirilməsini həyata keçirir.

13.2. Sertifikatlaşdırılan malların dövri qiymətləndirilməsi müqavilə şərtlərinə uyğun olaraq planlı və plandankənar şəkildə aparıla bilər.

13.3. Sertifikatlaşdırılan malların plandan kənar dövri qiymətləndirilməsi həmin mala dair şikayətlər və iddialar olduğu halda həyata keçirilir.

13.4. Sertifikatlaşdırılmış malın planlı dövri qiymətləndirilməsi uyğunluq sertifikatının qüvvədə olduğu müddət ərzində müvafiq sertifikatlaşdırma sxeminə uyğun olaraq ildə ən azı bir dəfə, uyğunluq sertifikatı verildiyi tarixdən etibarən 15 aydan gec olmayaraq aparılır.

13.5. Dövri qiymətləndirmə bu standartın müvafiq bəndlərinin tələblərinə və sertifikatlaşdırma sxemində nəzərdə tutulan prosedurlar tam şəkildə yerinə yetirməklə həyata keçirilir.

LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur

13.6. Uyğunluq sertifikatının sahibinin təşəbbüsü ilə uyğunluğun planlı dövri qiymətləndirilməsi vaxtından əvvəl aparıla bilər.

13.7. Sertifikatlaşdırılan malın planlı dövri qiymətləndirilməsi UQQ tərəfindən hazırlanmış proqram əsasında həyata keçirilir. Proqrama aşağıdakılar daxil edilir:

- UQQ haqqında məlumat;
- mal istehsalçısı haqqında məlumat;
- sertifikatlaşdırılan mal, o cümlədən onun eyniləşdirilməsi haqqında məlumat;
- dövri qiymətləndirilmənin aparıldığı yer və tarix;
- dövri qiymətləndirmənin həcmi;
- qiymətləndirmə qurupunun tərkibi;
- qiymətləndirmə qurupunun üzvləri arasında vəzifə bölgüsünün aparılması.

13.8. Sertifikatlaşdırılan mallar üçün sınaqlar aşağıdakı hallarda məcburi qaydada aparılır:

- sertifikatlaşdırılan mallara dair texniki tələblərin dəyişdirilməsi (yenisinin tətbiqi) - sertifikatlaşdırma zamanı təsdiq edilmiş göstəricilər dəyişdirilmiş (yeni) texniki tələblərə uyğun gəlmədikdə və ya sertifikatlaşdırılmış malların dəyişdirilmiş (yeni) texniki tələblərə uyğunluğu təsdiq edilmədikdə;
- sertifikatlaşdırılan malların konstruksiyasında (tərkibində), tamlığında sertifikatlaşdırma zamanı təsdiq edilmiş göstəricilərin dəyişməsinə səbəb olan dəyişikliklər olduqda;
- müəssisədə və (və ya) sertifikatlaşdıran mallarla bir başa əlaqəsi olan və onun texniki tələblərin uyğunsuzluğuna gətirib çıxara bilən malın hazırlanması, layihələndirməsi, istehsalı, tikinti, montaj, istismar, saxlanma, daşınma, satış, utilizasiya proseslərində dəyişikliklər olduqda;
- sertifikat sahibi tərəfindən sertifikatlaşdırma qurumuna mal xarakteristikasına aid, dövri qiymətləndirilmənin aparılma imkanına və ya sertifikatlaşdırma qurumunun malın texniki tələblərə uyğunluğu və uyğunsuzluğu barədə qərarına təsir edən etibarlı olmayan məlumatlar təqdim edildikdə;

13.9. Sertifikatlaşdırılan malların dövri qiymətləndirilməsinin aparılması proseduruna aşağıdakılar daxildir:

- qiymətləndirmə qrupunun formalaşdırılması;
- sertifikatlaşdırılan malın dövri qiymətləndirilməsi prosedurunun hazırlanması;
- işlərin 13.4-cü bəndinə uyğun aparılması;
- sertifikatlaşdırılan malın dövri qiymətləndirilməsi üzrə hesabatın tərtibi;
- sertifikatlaşdırılan malın dövri qiymətləndirilməsi nəticələrinin təhlili.

13.10. Malların eyniləşdirilməsi və sınaq üçün nümunələrin seçilib götürülməsi üzrə işlər bu standartın 6- cı bölməsi üzrə həyata keçirilir.

İkinci planlı dövri qiymətləndirmədə mal sınağının aparılması bu standartın 7-ci bölməsi üzrə həyata keçirilir. Sertifikatlaşdırması aparılan texniki tələblər dəyişildikdə, dövri qiymətləndirmə zamanı dəyişiklər nəzərə alınmaqla mal nümunəsinin sınağı aparılır.

Bu standartın 7.14-cü bəndində göstərilən tələblər nəzərə alınmaqla, dövri qiymətləndirmə ilə nəzərdə tutulmuş sınaqların dövri sınaqlarla birləşdirilməsinə yol verilir.

Sertifikatlaşdırılan malın dövri qiymətləndirilməsi zamanı istehsalat vəziyyətinin qiymətləndirilməsi bu standartın 10-cu bəndinə uyğun olaraq seçmə üsulu ilə həyata keçirilir.

Sertifikatlaşdırılmış keyfiyyəti idarəetmə sisteminin (qida təhlükəsizliyi idarəetmə sistemi) dövri qiymətləndirilməsinin nəticələrinin təhlili sertifikatlaşdırılmış keyfiyyət idarəetmə sisteminin (qida təhlükəsizliyi idarəetmə sistemi) son dövri qiymətləndirilməsinin nəticələrinə dair hesabatın təhlilini və sertifikat sahibi tərəfindən Əlavə D üzrə təqdim edilən yenilənmiş məlumatları nəzərdə tutur.

13.11. Dövri qiymətləndirmənin nəticələri qiymətləndirmə başa çatdıqdan sonra 5 iş günü müddətində qiymətləndirmə qrupu tərəfindən sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsi haqqında hesabatla sənədləşdirilir, burada:

©AZSTAND –Bütün hüquqlar qorunur

- sertifikatlaşdırılan malların dövri qiymətləndirilməsini həyata keçirən sertifikatlaşdırma qurumu haqqında məlumat;
- mal istehsalçısı haqqında məlumat;
- sertifikatlaşdırılan mallar, o cümlədən onun eyniləşdirilməsi haqqında məlumat;
- dövri qiymətləndirmənin tarixi və yeri;
- dövri qiymətləndirmə üçün əsas;
- qiymətləndirmə qrupunun tərkibi;
- dövri qiymətləndirmə proqramı haqqında məlumat;
- müşahidələr və qiymətləndirmə sübutları (zərurət olduqda təsdiqedici faktlarla uyğunluğun qısa şərhi və uyğunsuzluğun ətraflı təsviri);
- təsdiqedici sənədlərə və materiallara istinadlar;
- sertifikat sahibinin sertifikatlaşdırılan mallar üçün müəyyən edilmiş texniki tələblərə əməl etmək imkanlarına (qabiliyyətinə) dair nəticələri özündə əks etdirən yekun rəy;
- hesabata daxil edilən əlavələrin siyahısı (mövcud olduqda);
- dövri qiymətləndirmə zamanı əldə edilən digər məlumatlar.

13.12. Sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsi haqqında hesabatda düzəldici tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi zərurəti, habelə sertifikatlaşdırma qurumunun düzəldici tədbirlərinin effektivliyinin yoxlama üsulları göstərilir.

Düzəldici tədbirlərin həyata keçirilməsinin yoxlanılması üsulu müəyyən edilmiş uyğunsuzluqların sayından, onların əhəmiyyətindən, habelə təqdim olunan sübutlara inam dərəcəsindən və onların məlumatlılığından asılıdır.

13.13. Sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsi haqqında hesabat sertifikatlaşdırma qurumunun qiymətləndirmə qrupu tərəfindən imzalanır.

Sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsi haqqında hesabatda sertifikat sahibinin (rəhbərinin və ya rəhbərin nümayəndəsinin) hesabatda göstərilən materiallarla tanış olması barədə məlumat olmalıdır.

13.14. Sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsi haqqında akt iki nüsxədə tərtib edilir və biri sertifikatlaşdırma qurumunda qalır, digəri isə sertifikat sahibinə təqdim edilir.

13.15. Dövri qiymətləndirmənin nəticələri mənfi olduqda, sifarişçiyə sertifikatlaşdırma üzrə işlərin yerinə yetirilməsi müqaviləsi çərçivəsində işlərin müvəqqəti dayandırılması (müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün istehsalçı tərəfindən sertifikatlaşdırma qurumu ilə razılaşdırılmış düzəldici tədbirlərin həyata keçirilməsi mümkün olduqda) və ya xitam verilməsi (istehsalçı tərəfindən düzəldici tədbirlərinin həyata keçirilməsi mümkün olmadıqda) barədə məlumat verilir. Sifarişçiyə malların sertifikatlaşdırılması üzrə işlərin dayandırılması barədə əsaslandırılma ilə birlikdə bildiriş göndərilir. İşlərin bərpa edilməsi imkanı və onların həcmi sertifikatlaşdırılma sxeminə əsasən sertifikatlaşdırma qurumu tərəfindən müəyyən edilir.

13.16. Müqavilə üzrə dövri qiymətləndirmənin aparılması üzrə işlərin bərpası üçün sertifikat sahibi:
- aşkar edilmiş uyğunsuzluqları, onların səbəblərinin aradan qaldırılması üçün düzəldici tədbirlər hazırlayır və onları sertifikatlaşdırma qurumu ilə razılaşdırır;
- razılaşdırılmış müddətdə düzəldici tədbirlərin həyata keçirilməsini təmin edir və bu barədə sertifikatlaşdırma qurumuna məlumat verir.

Düzəldici tədbirlərin həyata keçirilməsi haqqında məlumatlar sənədləşdirilir.

13.17. Sertifikatlaşdırma qurumunun qiymətləndirmə qrupu sənədləşdirilmiş sübutlar ilə düzəldici tədbirlərin həyata keçirilməsini təhlil edir. Sertifikatlaşdırma qurumu dövriü qiymətləndirmə hesabatında göstərildiyi halda, təşkilatda düzəldici tədbirlərin həyata keçirilməsini yoxlaya bilər.

13.18. Sertifikat sahibi tərəfindən düzəldici tədbirlərin görülməsi barədə sertifikatlaşdırma qurumuna məlumat verilmədikdə və ya aşkar edilmiş uyğunsuzluqları 90 təqvim günü ərzində aradan qaldırılması mümkün olmadıqda, sertifikatlaşdırma qurumu icra müqaviləsi üzrə işin dayandırılması barədə qərar qəbul edir. Sertifikatlaşdırılmış malların


©AZSTAND –Bütün hüquqlar qorunur

dövri qiymətləndirilməsi üzrə işlərin aparılması və qərar barədə sertifikat sahibinə məlumat verir.

13.19. Düzəldici tədbirlərin həyata keçirilməsinin təhlil nəticələri müsbət olduqda sertifikatlaşdırma qurumu dövri qiymətləndirmənin aparılması üzrə işin bərpası haqqında qərar qəbul edir.

13.20. Qiymətləndirmə qrupu düzəldici tədbirlərin həyata keçirilməsinin təhlilinin müsbət nəticələrini təqdim etdiyi tarixdən 5 iş günündən gec olmayaraq sertifikatlaşdırma qurumunun Sertifikatlaşdırma Komissiyası aşağıdakı məlumatları təhlil edir:

- dövri qiymətləndirmə hesabatını;
- düzəldici tədbirlərin həyata keçirilməsi haqqında məlumatı.

13.21. Sertifikatlaşdırma qurumunun Sertifikatlaşdırma Komissiyası təqdim edilmiş məlumatların təhlili əsasında sifarişçi tərəfindən sertifikatlaşdırılmış mallar üçün müəyyən edilmiş texniki tələblərə uyğunluğu (uyğunsuzluğu) haqqında qərar qəbul edir.

13.22. Qərarın bir nüsxəsi (qərardan çıxarış) sifarişçiyə göndərilir.

## 14 XARİCİ MƏNŞƏLİ UYĞUNLUQ SƏNƏDLƏRİNİN TANINMASI

14.1. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, sazişlərə, razılaşmalara, (bundan sonra-beynəlxalq müqavilələr) uyğun olaraq həyata keçirilir.

14.2. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması üçün sifarişçi sifarişlə birlikdə bu sandartın 5.2.2-ci bəndində göstərilən sənədləri UQQ-yə təqdim etməlidir.

14.3. Təqdim edilən xarici mənşəli uyğunluq sənədləri əsasında malın uyğunluğun qiymətləndirilməsi 9s sxemi üzrə həyata keçirilir.

14.4. Azərbaycan Respublikası ilə ikitərəfli razılaşması olmayan ölkələrin xarici mənşəli uyğunluq sənədlərinin tanınması bu standartın 7-ci bölməsinə əsasən müvafiq sertifikatlaşdırma sxeminə uyğun sertifikatlaşdırma prosesinin aparılması yolu ilə həyata keçirilir.

14.5. Sertifikatlaşdırılan malın ölkə ərazisində sınağının aparılması mümkün olmadığı hallarda Azərbaycan Respublikası ilə beynəlxalq müqavilələri olmayan ölkələrin sertifikatlaşdırlan mala aid xarici mənşəli uyğunluq sənədlərinin tanınması sifarişçi tərəfindən təqdim edilən laboratoriyaların akkreditasiyası üzrə beynəlxalq təşkilatda (İLAC- International Laboratory Accreditation Cooperation) akkreditasiya olunmuş laboratoriyanın sınaq protokollarının əsli və ya sənədi verən orqanın rəsmi saytı və rəsmi email ünvanından təsdiqi əsasında həyata keçirilir.

14.6. Xarici mənşəli uyğunluq sənədlərinin tanınması sifarişçi tərəfindən UQQ-yə xarici mənşəli uyğunluq sənədlərinin əsli təqdim edilir (sənədi verən orqanın rəsmi saytı və rəsmi email ünvanından təsdiqi).

14.7 Zərurət yarandığı halllarda, UQQ aşağıdakı əlavə məlumatları tələb edə bilər:

- xarici mənşəli uyğunluq sertifikatlarınsda göstərilən standartlaşdırma üzrə normativ sənədlərin surətlərini;
- xarici mənşəli uyğunluq sertifikatlarınınverilməsi üçün əsas olan digər sənədlər.

14.8 Xarici mənşəli uyğunluq sertifikatlarının tanınmasının nəticələrinə əsasən onların tanınmasının mümkünlüyü və ya texniki tələbləri müəyyənləşdirən normativ sənədlərin tələbləri xarici mənşəli uyğunluq sənədlərində göstərilən normativ sənədlərin tələbləri ilə eynilik təşkil etmədikdə və ya ayrı-ayrı göstəricilər (xüsusiyyətlər) üzrə texniki tələblər nəzərə alınmadıqda, həmin malın bu standartın tələblərinə uyğun sertifikatlaşdırılması prosedurlarının aparılması barədə qərar qəbul edilir.

14.10. UQQ sertifikatlaşdırmanın aparılması üçün qəbul edilmiş qərar barədə sifarişçini məlumatlandırır.

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

14.11. Hər hansı digər ölkədə (üçüncü ölkədə) istehsal edilmiş məhsullara dair xarici mənşəli uyğunluq sertifikatlarının qarşılıqlı tanınması barədə Azərbaycan Respublikası ilə müqaviləsi olan ölkələrin xarici mənşəli uyğunluq sertifikatları tanınmır.

## 15 UYĞUNLUQ SERTİFİKATINA DƏYİŞİKLİKLƏRİN VƏ (VƏ YA) ƏLAVƏLƏRİN EDİLMƏSİ, SERTİFİKATIN QÜVVƏDƏ OLMA MÜDDƏTİNİN DAYANDIRILMASI VƏ SERTİFİKATIN DUBLİKATININ VERİLMƏSİ

15.1. Verilmiş uyğunluq sertifikatına əlavə və (və ya) dəyişikliklərin edilməsi zərurəti yarandıqda, uyğunluq sertifikatının sahibi (sifarişçi) uyğunluq sertifikatını vermiş sertifikatlaşdırma qurumuna sifarişlə müraciət edir. Sifarişlə birlikdə, sertifikatlaşdırma qurumuna uyğunluq sertifikatının əsli və əlavə və (və ya) dəyişikliklərin edilməsinə əsas olan sənədlər təqdim olunur.

15.2. Dəyişikliklərin edilməsi zərurəti aşağıdakı hallarda yarana bilər:

− təşkilatın hüquqi statusu və ya mülkiyyət hüququ dəyişdikdə;

− istehsalatın hüquqi ünvanı və ya yerləşdiyi ünvanı dəyişdikdə;

− malın konstruksiyasına (tərkibinə) və ya onun istehsal texnologiyasına dəyişikliklər edildikdə.

15.3. Sertifikatlaşdırma qurumu sifarişi və ona əlavə edilən sənədləri təhlil edir və müvafiq qərar qəbul etməklə, sifarişçini bu barədə məlumatlandırır. Əgər edilən dəyişikliklər malın sertifikatlaşdırma zamanı təsdiq edilmiş tələblərə uyğunluğuna təsir etmirsə, sertifikatlaşdırma qurumu sifarişi qəbul etdikdən sonra 10 iş günü müddətində qüvvədə olan uyğunluq sertifikatına nəzərdə tutulan dəyişiklikləri və (və ya) əlavələri edir. Digər halda yeni sınaqların və (və ya) malın istehsalının vəziyyətinin qiymətləndirilməsi və (və ya) mal layihəsi üzərində əlavə tədqiqatlar, yaxud malın tipinin təsdiqinin aparımasının zəruriliyi barədə qərar qəbul edilir.

15.4. Uyğunluq sertifikatına dəyişikliklər və (və ya) əlavələr qeydiyyat nömrəsi saxlanılmaqla yeni blankda nəşr edilir. “Əlavə məlumat” sütununda əlavə və (və ya) dəyişikliklərin xarakteri, əlavə və (və ya) dəyişikliklərin edilməsi üçün əsaslar və tarix, o cümlədən “əvəzinə verilib” məlumatı, əvvəlki uyğunluq sertifikatının verilmə tarixi göstərilir. Bu halda sertifikatın qüvvədə olma müddətinin qalan dövrü davam etdirilir. Əvvəlki verilmiş uyğunluq sertifikatı sertifikatlaşdırma qurumunda təhvil verilir.

Uyğunluq sertifikatına edilən əlavə və (və ya) dəyişikliklər sertifikatlaşdırma qurumunun rəhbərinin imzası və möhürü ilə təsdiq edilməlidir.

15.5. Uyğunluq sertifikatının əsli sifarişçi tərəfindən itirildikdə, korlandıqda və yararsız hala düşdükdə, sifarişçi uyğunluq sertifikatını vermiş quruma uyğunluq sertifikatının dublikatının verilməsi üçün sifariş təqdim edir.

15.7 Seriya şəklində istehsal edilmiş mala verilmiş uyğunluq sertifikatının dublikatının verilməsinə dair siafrişə və uyğunluq sertifikatının qüvvədə olduğu dövr ərzində malın keyfiyyəti və təhlükəsizliyinə dair sertifikatlaşdırma qurumuna daxil olan məlumata baxır və sifarişin daxil olduğu gündən etibarən 7 gündən gec olmayaraq dublikatın verilməsi və ya sifarişçiyə yazılı məlumat verməklə sertifikatlaşdırılmış mal üzərində plandankənar dövri qiymətləndirilməsinin aparılması barədə qərar qəbul edir. Dövri qiymətləndirmənin nəticələri müsbət olduqda sertifikatlaşdırma qurumu uyğunluq sertifikatının verilməsi barədə qərar qəbul edir.

15.8 Plandankənar dövri qiymətləndirmənin nəticələri mənfi olduqda, sertifikatlaşdırma qurumu uyğunluq sertifikatının ləğv edilməsi barədə qərar qəbul etməklə sifarişçiyə bu barədə yazılı məlumat verir və plandankənar dövri yoxlanmanın nəticələrinə dair aktıın surətini ona göndərir. Plandankənar dövri qiymətləndirmə zamanı aşkar edilmiş uyğunsuzluqları aradan qaldırdıqdan sonra sifarişçi malın təkrar sertifikatlaşdırılmasına dair sifariş verə bilər.


©AZSTAND –Bütün hüquqlar qorunur

15.9 Uyğunluq sertifikatının dublikatı onun əslinin qeydə alındığı nömrə ilə qeydə alınır. Bu halda uyğunluq sertifikatı blankının yuxarı sağ küncünə üzrərində tarix göstərilən “DUBLİKAT" sözü həkk edilmiş ştamp vurulur.

15.10 Uyğunluq sertifikatının dublikatının verilməsi barədə məlumatların qeydiyyatı aparılır.

15.11 Malın standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğun olmadığı müəyyən edildiyi halda, uyğunluq sertifikatının qüvvəsinin dayandırılması barədə qərar qəbul edilir və 1 (bir) ay müddətində akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən aşkar edilmiş nöqsanların aradan qaldırılması sifarişçidən tələb olunur. Qeyd olunan tələblərə riayət olunmadığı halda akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən uyğunluq sertifikatının ləğvi barədə qərar qəbul edilir.

15.12. Sertifikatlaşdırma qurumu tərəfindən əvvəllər verilmiş uyğunluq sertifikatları qüvvədə olduğu müddət ərzində etibarlı sayılır.

## 16 UYĞUNLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ PROSESİNDƏ İŞTİRAK EDƏN EKSPERT-AUDİTORLARA DAİR TƏLƏBLƏR

16.1. Uyğunluğun qiymətləndirilməsi prosedurları uyğunluğu qiymətləndirən qurumun ekspert-auditorları tərəfindən həyata keçirilir.

16.2. Ekspert-auditorlar öz funksiyalarını yerinə yetirmək üçün səriştəli olmalı, o cümlədən lazımi texniki mülahizələr ifadə edə bilməli, fəaliyyət istiqamətlərini müəyyən etməli və onları həyata keçirməlidir.

16.3. Uyğunluğu qiymətləndirən qurumun personalı uyğunluğun qiymətləndirilməsi fəaliyyəti zamanı alınan və ya hazırladığı bütün məlumatları, sertifikatlaşdırma sxemi ilə və ya qanunvericiliklə tələb olunan məlumatlar istisna olmaqla, gizli saxlamalıdırlar.

Uyğunluğu qiymətləndirən qurum sertifikatlaşdırma prosesinə cəlb edilən işçilərin səlahiyyətlərinin inzibati idarəetmə üsulunu yaratmalı, tətbiq və təsdiq etməlidir. Bu prosedur aşağıdakılar üçün nəzərdə tutulub:

a) sertifikatlaşdırma sxemlərinin tələbləri nəzərə alınmaqla uyğunluğun qiymətləndirilməsi prosesində hər bir vəzifə üçün kadr səriştəsi meyarlarını müəyyən etmək;

b) uyğunluğun qiymətləndirilməsi prosesləri, tələbləri, metodologiyası, tədbirləri və sertifikatlaşdırma sxeminin digər tələbləri üçün təlim ehtiyaclarını müəyyənləşdirmək və zərurət olduqda təlim proqramlarını təklif etmək;

c) işçi heyətinin fəaliyyətinə davamlı nəzarəti həyata keçirmək.

16.4. Uyğunluğu qiymətləndirən qurum sertifikatlaşdırma prosesində iştirak edən personal üçün aşağıdakı məlumatları əldə etməlidir:

a) adı, soyadı və ünvanı;
b) işəgötürən və tutduğu vəzifə;
c) ixtisas təhsili və peşə statusu;
d) təcrübə və təlim;
e) biliyin qiymətləndirilməsi;
g) uyğunluğu qiymətləndirən quruma verilən səlahiyyət;
h) hər bir qeydin ən son yenilənmə tarixi.

16.5. Uyğunluğun qiymətləndirilməsini həyata keçirən ekspert-auditorlar AZS ISO 19011 üzrə aşağıda göstərilən ümumi tələblərə cavab verməlidir:

- Müstəqil olmaq;
- Müvafiq təhsil və xüsusi biliklər;
- İş təcrübəsi;

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

- Şəxsi keyfiyyətlər;
- Biliklərin yenilənməsi.

16.5.1. Müstəqil olmaq

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar sertifikatlaşdırma işləri, o cümlədən dövri qiymətləndirmə zamanı verdikləri qərarlara təsir edən və ya bu cür təsir təəssüratı yaradan hər hansı kommersiya, maliyyə və ya inzibati təsirdən müstəqil olmalıdır.

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar sertifikatlaşdırma işləri, o cümlədən dövri qiymətləndirmə zamanı əldə edilmiş məlumatların dövlət, kommersiya və qanunvericiliklə qorunan digər sirrləri təşkil edən məlumatların, habelə qanunvericiliyə uyğun olaraq əldə edilməsi məhdudlaşdırılan digər məlumatların məxfiliyini təmin etməlidir.

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar sertifikatlaşdırma işləri, o cümlədən dövri qiymətləndirmə zamanı sifarişçilərə məsləhət xidməti göstərə bilməz.

16.5.2. Müvafiq təhsil və xüsusi biliklər

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar müvafiq sahə üzrə ali ixtisas təhsilinə malik olmalı (dövlət tərəfindən təşdiq edilmiş diplomla) və məhsulların, xidmətlərin, proseslərin sertifikatlaşdırılması sahəsində iş təcrübəsinə malik olmalıdır. Qanunvericiliyin tələbləri, uyğunluğun qiymətləndirilməsinin hüquqi və iqtisadi əsaslandırılmasını, sertifikatlaşdırmanın aparılma qaydasını, uyğunluğun qiymətləndirilməsi qurumuna dair tələbləri, müvafiq standartlaşdırma üzrə normativ sənədlərin tələblərini, auditin planlaşdırılması qaydalarını, audit nəticələrinin rəsmləşdirilməsi qaydaları və digər vacib biliklərə malik olmalıdır.

16.5.3. İş təcrübəsi

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar bu standartın 18.8-ci bəndi üzrə iş təcrübəsinə malik olmalıdır.

16.5.4. Şəxsi keyfiyyətlər

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar özünə inamlı olmalı, geniş dünyagörüşünə, məntiqi təfəkkürə, möhkəm iradəyə və real qiymətləndirmək bacarığına malik olmalı, mürəkkəb prosesləri əsas perspektiv nöqteyi-nəzərdən dərk etməli, işgüzar etiket üzrə qaydalara sahib olmalıdır.

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar sağlam düşüncəyə malik mütəxəssis vəaşağıdakı bacarıqlara malik olmalıdır:

- faktiki məlumatları qərəzsiz və obyektiv toplamaq və təhlil etmək;
- vəziyyəti real qiymətləndirmək, yoxlanılan müəssisələrin bölmələri arasında əlaqələri və qarşılıqlı əlaqəni anlamaq;
- faktiki məlumatlar əsasında nəticələri məntiqi əsaslandırmaq;
- göstərilən təzyiqlərə qarşı müqavimət göstərmək;
- auditin və təhlilin nəticələrini qısa və əsaslı şəkildə ifadə etmək;
- işdə dəqiqliyi yaradıcılıq axtarışı və işgüzar fəaliyyəti ilə birləşdirmək;
- çətin şəraitdə düzgün qərarlar qəbul etmək;
- işçilərlə ünsiyyət qurmaq, qiymətləndirmənin məqsədlərindən yayınmamaq, vəziyyətə adekvat və düzgün cavab vermək, etik normalara riayət etmək;

16.5.5. Biliklərin yenilənməsi:

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar öz bilik səviyyəsini daim artırmalı və səriştəsini lazımi səviyyədə saxlamalıdır, həmçinin:

- uyğunluğun qiymətləndirilməsi prosedurlarını, müvafiq sahə üzrə normativ sənədlərin tələblərini, qiymətləndirmə metodlarını bilməli və müvafiq təlimlərdən keçməlidir;
- ixtisasartırma kurslarında (üç ildə ən azı 1 dəfə olmaqla) seminarlarda, konfranslarda, həmçinin standartlaşdırma üzrə işlərdə iştirak etməklə peşə biliklərini müstəqil olaraq təkmilləşdirməlidir ;
- uyğunluğun qiymətləndirilməsi prosesində, o cümlədən dövri qiymətləndirmədə (ildə ən azı dörd qiymətləndirmədə) iştirak etməlidir.

LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur

16.6. Uyğunluğun qiymətləndirilməsi qurumu uyğunluğun qiymətləndirilməsi prosesində iştirak edən personal ilə funksiyalarının yerinə yetirilməsi üzrə müqavilə bağlamalı və ya razılaşma sənədi imzalamadır.

16.7. Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar uyğunluğun qiymətləndirilməsi qurumunun rəhbəri və ya təşkilatın strukturundan asılı olaraq səlahiyyətli şəxsin əmri ilə işə qəbul edilir və işdən azad edilir.

Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar aşağıdakı kateqoriyalara bölünür:

- aparıcı (baş, böyük) ekspert-auditor;
- ekspert-auditor;
- təcrübəçi-ekspert.

16.8. Uyğunluğun qiymətləndirilməsi üzrə ekspert-auditorlar müvafiq ixtisas üzrə iş təcrübəsinə malik olmalıdır:

**- aparıcı (baş, böyük) ekspert-auditor:**

- ən azı 5 (beş) il iş təcrübəsi, müvafiq sahə üzrə 30 audit günü (təsdiq edicisənəd və ya qeyd),

- AZS ISO 9001, AZS ISO 19011 və AZS ISO 17065 standartlar üzrə məlumatlı olmalı və müvafiq təsdiqedici sənəd təqdim edilməlidir;

**- ekspert-auditor:**

- ən azı 3 (üç) il iş təcrübəsi, müvafiq sahə üzrə 15 audit günü (təsdiqedici sənəd və ya qeyd);

- AZS ISO 9001, AZS ISO 19011 və AZS ISO 17065 standartlar üzrə məlumatlı olmalı və müvafiq təsdiqedici sənəd təqdim edilməlidir;

**- təcrübəçi-ekspert:**

- ən azı 1 (bir) il iş təcrübəsi ;

- AZS ISO 17065 standartı üzrə məlumatlı olmalı və müvafiq təsdiqedici sənəd təqdim edilməlidir.

16.9. Malın uyğunluğunun qiymətləndirilməsi üzrə ekspert-auditorlar standartlaşdırma, texniki tənzimləmə və uyğunluğun qiymətləndirilməsi sahəsində qanunvericilik tələbləri haqqında, həmçinin aşağıdakı biliklərə malik olmalıdır:

- malın xarakteristikası, onun konstruksiyası, istehsal texnologiyası, məmulat və materialların tərkibi;
- standartlaşdırma üzrə normativ sənədlərdə müəyyən edilən sınaq və ölçmə metodları;
- xammalın, materialların, kompleksləşdirici məmulatların giriş nəzarətinin, məhsullara, hazırlanma proseslərinə və hazır məhsullara nəzarətin təşkili;
- sınaq və ölçmələr üçün avadanlıqlar, onların metroloji təminatı, istismarı və texniki xidmətlər üzrə tələblər;
- texniki xidmət və texnoloji avadanlıqların təmiri;
- emal metodları və sınaq və ölçmə nəticələrinin təhlili;
- keyfiyyətin qiymətləndirilməsinin statistik metodları və məhsulun etibarlılığı;
- uyğunluğun qiymətləndirilməsi prosedurlarını.

18.10. Uyğunluğu qiymətləndirən qurumun ekspert-auditorlarının vəzifələri aşağıdakılardır:

- Sifarişin baxılması;
- Malın sertifikatlaşdırılması üçün sxemin seçilməsi;
- Müqavilə (saziş) layihələrinin hazırlanması;
- Malın sertifikatlaşdırılmasının aparılması üçün standartlaşdırma üzrə normativ sənədin müəyyən edilməsi (sınaq metodları, digər xarakteristikarı (tələblər) təyin edir);
- istehsalatın vəziyyətinin qiymətləndirilməsi (secilmiş sxem üzrə);
- dövri qiymətləndirilmənin aparılması;
- nümunələrin seçilməsi və məhsulun sınağının aparılmasında iştirakı;

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

- malın eyniləşdirilməsi;
- uyğunluq sertifikatının verilməsi və ya əsaslandırılmış imtina barədə qərarın hazırlanması;
- sertifikatlaşdırma sahəsinə uyğun olaraq uyğunluq sertifikatlarının rəsmiləşdirilməsi;
- verilmiş uyğunluq sertifikatının fəaliyyətinin dayandırılması və ya imtinabarədə təkliflərin irəli sürülməsi;
- hesabatların hazırlanması.

16.11. Uyğunluğu qiymətləndirən qurumun ekspert-auditorlarının hüquqları aşağıdakılardır:
- uyğunluğun qiymətləndirilməsi qurumunun əmr və qərarları ilə tanış olmaq;
- uyğunluğu qiymətləndirən qurumun fəaliyyətinin təkmilləşdirilməsi üçün rəhbərliyə təkliflər vermək;
- vəzifə öhdəliklərini yerinə yetirmək üçün zəruri olan sənədləri əldə etmək.

16.12. Uyğunluğu qiymətləndirənilməsi qurumun ekspert-auditorları məsuliyyət daşıyır:
- Azərbaycan Respublikası əmək qanunvericiliyində müəyyən edilmiş və vəzifə təmilatında göstərilən vəzifə öhdəliklərinə uyğun olan vəzifə öhdəliklərini yerinə yetirmədiyinə (düzgün yerinə yetirmədiyinə) görə;
- fəaliyyət göstərərkən müəyyən edilmiş inzibati, cinayət və mülki qanunvericiliyə uyğun olan qanun pozuntularına görə;
- Azərbaycan Respublikası əmək, cinayət və mülki qanunvericiliyi çərçivəsində maddi zərərə görə;
- əldə edilən bütün məlumatların məxfiliyinə görə.

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

# ƏLAVƏ A
## Azərbaycan Respublikasında malların sertifikatlaşdırılması üçün tətbiq edilən sertifikatlaşdırma sxemləri

Cədvəl A 1

| Sxemin nömrəsi | Sxemlərin elementləri | | | Tətbiqi | Uyğunluğu təsdiq edən sənəd | Uyğunluq sertifikatının qüvvədə olma müddəti |
|---|---|---|---|---|---|---|
| | Sınaq və ölçmələr | İstehsalatın qiymətləndirilməsi | Sertifikatlaşdırılan malın dövri qiymətləndirilməsi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 1s | Mal nümunəsinin sınağı | İstehsalatın vəziyyətinin qiymətləndirilməsi | Malın eyniləşdirilməsi,mal nümunəsinin sınağı və (və ya) istehsalatın vəziyyətinin qiymətləndirilməsi | Sifarişçi istehsalçı olduqda seriya ilə istehsal olunan mallara. | Seriya ilə istehsal edilən mala dair uyğunluq sertifikatı | 2 il |
| 2s | Mal nümunəsinin sınağı | İdarəetmə sisteminin qiymətləndirilməsi | Malın eyniləşdirilməsi və mal nümunəsinin sınağı | Sifarişçi istehsalçı idxalçı (satıcı) olduqda və istehsalçının sertifikatlaşdırılmış keyfiyyət və (və ya) qida təhlükəsizliyi idarəetmə sistemi olduqda, seriya ilə istehsal olunan mallara | | 3 il (İdarəetmə sisteminin sertifikatının qüvvədə olma müddətindən çox olmamaq şərtilə) |
| 3s | Mal nümunəsinin sınağı | | - | Sifarişçi istehsalçı idxalçı (satıcı) olduqda mal | Mal partiyası üçün uyğunluq sertifikatı | Mal partiyası və ya yararlıq müddəti bitənə |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | partiyasına. | | qədər |
| **4s** | Mal nümunəsinin sınağı | - | - | Sifarişçi istehsalçı, idxalçı (satıcı) olduqda, vahid məmulata. Əgər məmulatın sınağı və ölçülməsi məmulatı dağıtmadan aparılırsa | Vahid mal üçün uyğunluq sertifikatı | 1 il |
| **5s** | Mal layihəsinin tədqiqi | İstehsalatın vəziyyətinin qiymətləndirilməsi | Malın eyniləşdirilməsi, mal nümunəsinin sınağı (ölçülməsi) və (və ya) istehsalat vəziyyətinin qiymətləndirilməsi vasitəsilə | Sifarişçi istehsalçı olduqda, hazır malın sınağı və ölçülməsi zamanı müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiq etmək tamamilə mümkün olmadığı və ya çətin olduğu hallarda | Seriya ilə istehsal edilən mal üçün uyğunluq sertifikatı | 2 il |
| **6s** | Mal layihəsinin tədqiqi | İdarəetmə sisteminin qiymətləndirilməsi | Malın eyniləşdirilməsi, mal nümunəsinin sınağı (ölçülməsi) vasitəsilə | Sifarişçi istehsalçı olduqda,İstehsalçını n sertifiklaşdırılmış keyfiyyət və ( və ya) qida təhlükəsizliyi idarəetmə sistemi olduqda seriya ilə istehsal olunan mallara. (Hazır malın sınağı və ölçülməsi zamanı | Seriya ilə istehsal edilən mal üçün uyğunluq sertifikatı | 3 il (İdarəetmə sertifikatının qüvvədə olma müddətindən çox olmamaq şərtilə) |

LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | müəyyən edilmiş tələblərə uyğunluğunu təsdiq etmək tamamilə mümkün olmadığı və ya çətin olduğu halda) | | |
| **7s** | Mal tipinin təsdiqi | İstehsalatın vəziyyətinin qiymətləndirilməsi | Mal nümunəsinin sınağı və (və ya) istehsalat vəziyyətinin qiymətləndirilməsi vasitəsilə | Sifarişçi istehsalçı olduqda, seriyalı istehsal məqsədilə planlaşdırılan mürəkkəb mallar, eyni zamanda əhəmiyyətli dərəcədə malın modifikasiyası nəzərdə tutulduğu halda | Seriya ilə istehsal edilən mal üçün uyğunluq sertifikatı | 2 il |
| **8s** | Mal tipinin təsdiqi | İdarəetmə sisteminin qiymətləndirilməsi | Malın eyniləşdirilməsi, mal nümunəsinin sınağı (ölçülməsi) vasitəsilə | Sifarişçi istehsalçı olduqda, keyfiyyət və (və ya) qida təhlükəsizliyi idarəetmə sistemləri üzrə sertifiklaşdırılmış seriyalı istehsal məqsədilə planlaşdırılan mürəkkəb mallar, eyni zamanda | Seriya ilə istehsal edilən mal üçün uyğunluq sertifikatı | 3 il |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | əhəmiyyətli dərəcədə malın modifikasiyası nəzərdə tutulduğu halda | | |
| **9s** | Təqdim olunan xarici mənşəli uyğunluq sənədlərinin tanınması | - | - | Sifarişçi istehsalçı, idxalçı (satıcı) olduqda, idxalçı ölkənin Azərbaycan Respublikası ilə xarici uyğunluq sənədlərinin qarşılıqlı tanınmaya dair ikitərəfli razılaşması olan ölkələrdən Azərbaycan Respublikasına vahid mal, məhdud partiya, partiya və seriya ilə idxal olduqda. | Vahid məmulat üçün uyğunluq sertifikatı. | 1 il |

LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur

**ƏLAVƏ B**
**Malın eyniləşdirməsi aktının forması**
**AKT**

1. Sifariş №______________________________________________

2. Hüquqi və ya fiziki şəxsin adı_________________________________

3. Fəaliyyət ünvanı__________________________________________

4. Məhsulun adı, tipi (markası)________________________________

5. İstehsalçı ölkənin adı ________________________________

6. Məhsulun istehsalçısı:_______________________________

7. Partiyanın miqdarı_____________________________

8. Məhsula dair normativ sənəd_____________________________

9. Məhsulun qablaşdırılması________________________________

10. Məhsulun saxlanması ______________________________

11. Məhsulun markalanması____________________________________

12. Məhsulun kodu:______________________________________________

13. Təyinat (orqanoleptik) göstəricilərinin və digər əsas xarakteristikaların texniki normativ sənədlərin tələblərinə uyğunluğunun təhlili_______________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

14. Əlavə məlumatlar (zəruri olduqda)
__________________________________
____________________________________________________________
____________________________________________________________

**NƏTİCƏLƏR:**

**Təqdim edilmiş məhsul nümunə ilə və (və ya) onun təsviri ilə eyniləşdirilib, uyğundur:**
____________________________________________________________
____________________________________________________________

Ekspert-auditor ____________ ____________________

imza Ad, soyad

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

Ekspert-auditor ________________ __________________________
imza Ad, soyad

Sifarişçinin və ya müəssisənin
səlahiyyətli nümayəndəsi ________________
_________________________
imza Ad, soyad

«____»_______________20_-ci il

LAYİHƏ

**ƏLAVƏ C**
**Malın nümunə seçmə aktının forması**

©AZSTAND –Bütün hüquqlar qorunur

**AKT**

**“___” “___________”** 2022-ci il

__________________________________________________________

sifarişçinin adı

__________________________________________________________

nümunələrin seçildiyi yer

__________________________________________________________tərəfindən

sertifikatlaşdırma üzrə şöbənin nümayəndəsinin S.A.A

__________________________________________________________iştirakı ilə

sifarişçinin nümayəndəsinin S.A.A

__________________________________________________________

məhsulun adı

__________________________________________________________

__________________________________________________________

normativ sənədlərin işarəsi və nömrəsi

uyğunluğunu ________________________________________________tələblərinə

yoxlamaq üçün hazır məhsulun nümunələri seçilmişdir.

Nümunələr ________________________________________tələblərinə uyğun seçilmişdir.

normativ sənədin işarəsi və nömrəsi

| s/s | Yoxlanılan məhsul nümunələrinin adı (tipi,markası və s.) | Ölçü vahidi | Partiya-nın miqdarı | Hazırlanma tarixi | Seçilmiş məhsul nümunələrinin miqdarı və ya kütləsi | |
|---|---|---|---|---|---|---|
| | | | | | Orqanoleptik yoxlama üçün | Sınaq üçün |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

LAYİHƏ



©AZSTAND –Bütün hüquqlar qorunur

Məhsulun orqanoleptik göstəriciləri_______________________________________

Eyniləşdirilməsinin nəticələri___________________________________________
Qablaşdırma _________________________________________________________

Saxlanma şəraiti və yeri _____________________________________________

Uyğunluğun qiymətləndirilməsi departamentinin nümayəndəsi: ___________ ______
imza S.A.A

________ _______
imza S.A.A

Sifarişçi:

_________ _____________
imza S.A.A

LAYİHƏ

**ƏLAVƏ D**

**Sertifikatlaşdırılan malların stabil buraxılmasının təmin edilməsi üçün sertifikatlaşdırılmış keyfiyyət idarəetmə sisteminin və (və ya) qida təhlükəsizliyi**

©AZSTAND –Bütün hüquqlar qorunur

**idarəetmə sisteminin imkanlarını qiymətləndirmək məqsədilə malın istehsalçısının məlumatları**

1. Müəssisənin adı, hüquqi ünvanı, istehsalatın ünvanı (olduğu halda -filialların ünvanı).

2. Sertifikatlaşdırılan malların buraxılmasına cavabdeh olan şəxslərin adı və vəzifəsi, əlaqə nömrələri.

3. Serifikatlaşdırılmış keyfiyyət idarəetmə sistemi və (və ya) qida təhlükəsizliyi idarəetmə sistemi sertifikatlaşdırılan malın istehsal üzrə fəaliyyətini əhatə edirmi? (keyfiyyət idarəetmə sisteminə və (və ya) qida təhlükəsizliyi idarəetmə sisteminə uyğunluq sertifikatının surətləri və ilkin hesabatlar daxil olmaqla, idarəetmə sistemlərinin qiymətləndirilməsi üzrə birinci və ikinci audit hesabatları və idarəetmə sistemlərinin sertifikatlaşdırma qurumu tərəfindən aparılan sonuncu dövri qiymətləndirmə hesabatlarını təqdim edilir.)

Bəli

Xeyr

*Qeyd: Kkeyfiyyət idarəetmə sisteminə və (və ya) qida təhlükəsizliyi idarəetmə sisteminə uyğunluq sertifikatının surətləri və ilkin hesabatlar daxil olmaqla, idarəetmə sistemlərinin qiymətləndirilməsi üzrə birinci və ikinci audit hesabatları və idarəetmə sistemlərinin sertifikatlaşdırma qurumu tərəfindən aparılan sonuncu dövri qiymətləndirmə hesabatları təqdim edilir.*

4. Sertifikatlaşdırılan malların seriyalı istehsalı üçün bütün imkanlar və texnoloji istehsal prosesi tam şəkildə təmin edilibmi?

Bəli

Xeyr

5. Sertifikatlaşdırılan malların planlaşdırılmış illik istehsalı (ədəd, kq, ay/il).

6. Sertifikatlaşdırılan mallarla bağlı şikayətlər və iddialar daxil olurmu? (şikayətlər və iddialar üzrə qəbul edilmiş fəaliyyətlərdə əks olunan sənədlərin mahiyyəti və surətləri təqdim edilir.)

Bəli

Xeyr

7. İstehsal texnologiyasına riayət etmə

- Əhəmiyyətli və xüsusi istehsal proseslərinin siyahısı
- Subpodrat proseslərin siyahısı (autsorsinq prosesləri) və onların idarəolunması üsulları
- Sertifikatlaşdırılan malların nəzarəti və sınaqlarının aparılması (nəzarət növləri, həcmi, tezliyi, nəticələri)
- Malın keyfiyyəti haqqında məlumat:

ilk təqdimatdan qəbul edilmiş malların sayı haqqında məlumatlar

- hazır malların keyfiyyət göstəriciləri (nöqsanların dərəcəsi, zəmanət təmirinin səviyyəsi, satışdan əvvəl xidmət səviyyəsi və s.)
- istehsalçının sınaq laboratoriyası:

Müəssisənin laboratoriyası akkreditə olunubmu?

Bəli

Xeyr

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

8. Hazır malın sınaqdan keçirilməsi sınağının aparılması mümkündürmü?
Bəli

Xeyr

9. Sifarişçi müəssisədə mövcud olmayan digər sınaq laboratoriyasında sınaq aparırmı?
Bəli

Xeyr
10. Sertifikatlaşdırılmış malların markalanması (təsviri, markalanma yeri və üsulu)

LAYİHƏ

**Əlavə E**
**Malın sertifikatlaşdırılması üçün sifariş forması**

©AZSTAND –Bütün hüquqlar qorunur

Sertifikatlaşdırma qurumunun tam adı

________________________________________________
Yerləşdiyi və fəaliyyət göstərdiyi ünvan (ünvanlar fərqli olduqda)

Malın sertifikatlaşdırılması üçün
ŞİFARİŞ

1.__________________________________________________________________________
(Sifarişçinin tam adı, hüquqi şəxslər üçün - ölkənin adı göstərilməklə yerləşdiyi və

__________________________________________________________________________
fəaliyyət göstərdiyi ünvanlar (ünvanlar fərqli olduqda)

__________________________________________________________________________
və ya fiziki şəxslər, o cümlədən fərdi sahibkar kimi qeydiyyatdan keçənlər üçün – ad, soyad, atasının adı,

_________________________________________________________________________
ölkənin adı göstərilməklə yaşadığı və

__________________________________________________________________________
fəaliyyət göstərdiyi ünvanlar (ünvanlar fərqli olduqda),

_______________________________________________________________________
bank rekvizitləri

VÖEN [2]___________________________________________________

Telefon nömrəsi _____________________, elektron ünvan __________________,

_____________________________________________________________________
(malın adı, malı eyniləşdirməsini təmin edən məlumatlar

__________________________________________________________________________,

XİF MN kodu [3] __________________________, MT[4]____________________üzrə

_________________________________________________________
istehsalçının tam adı

__________________________________________________________________________
İstehsalçının tam adı - hüquqi şəxslər üçün - ölkənin adı göstərilməklə yerləşdiyi və

__________________________________________________________________________
fəaliyyət göstərdiyi ünvanlar (ünvanlar fərqli olduqda)

_____________________________________________________________________
və ya fiziki şəxslər, o cümlədən fərdi sahibkar kimi qeydiyyatdan keçənlər üçün – ad, soyad, atasının adı,

__________________________________________________________________________
ölkənin adı göstərilməklə fəaliyyət göstərdiyi ünvanlar (ünvanlar fərqli olduqda),

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

İstehsal olunan ________________________________________________,
(seriya, partiya, vahid məmulat)

Müşayiətedici sənədlər _____________________________________, üzrə

____________________________________________________________________
(istehsal aparılan zaman istifadə olunan normativ sənədlərin işarəsi və adı)

____________________________________________________________________,

____________________________________________________________________
(Uyğunluğun qiymətləndirilməsi aparılan bəndlər göstərilməklə

____________________________________________________________________.
istifadə olunan texniki reqlamentin adı və işarəsi

__________________________________ üzrə könüllü sertifikatlaşdırılmanın
Sertifikatlaşdırma sxeminin işarəsi

aparılmasını xahiş edirəm .

2. - sifarişçi malın sertifikatlaşdırılması şərtlərinə əməl etməyi;

- sertifikatlaşdırılan malın uyğunluq sertifikatında göstərilən normativ sənədlərin tələblərinə uyğunluğunu təmin etməyi;

- sifariş verilmiş malın sertifikatlaşdırılmasına dair xərcləri ödəməyi

öz öhdəsinə götürür.

Əlavə məlumatlar ______________________________________________________
əlavə edilən sənədlərin siyahısı (adı və işarəsi)

Müəssisənin rəhbəri _______ ________________________
imza soyadı, adı və atasının adı

Baş mühasib _________________ ________________________
imza soyadı, adı və atasının adı

M.Y

1. Məlumatın daxil edilməsi üçün sətirlərin sayı məhdud deyil.

2. Hüquqi şəxslərin və fərdi sahibkarların Vahid Dövlət Reyestrində qeydiyyat nömrəsi (Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxslər və fərdi sahibkarlar üçün).

3. Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kod.

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

4. Mal növləri təsnifatı.

LAYİHƏ

**ƏLAVƏ F**

**Uyğunluğun könüllü qiymətləndirilməsi zamanı malların (işlərin, xidmətlərin) uyğunluq sertifikatının forması**

| |
|---|
| **AZƏRBAYCAN RESPUBLIKASI**<br>Malların (işlərin, xidmətlərin) uyğunluğunun könüllü qiymətləndirilməsi barədə |


©AZSTAND –Bütün hüquqlar qorunur

**UYĞUNLUQ SERTİFİKATI**

____________________________________________________
(akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumun adı və akkreditasiya attestatının qeydiyyat nömrəsi)

____________________________________________________

B № __________________________
(blankın qeydiyyat nömrəsi)

Verilmə tarixi "____" ____________ 20____il qüvvədə olma müddəti ___________________

№ ____________________________________
(sertifikatın qeydiyyat nömrəsi)

Uyğunluğu qiymətləndirilmiş _____________________________________________________
(malın (işin, xidmətin) adı, növü, markası)

____________________________________________________________________________________

__________________________________________ ____________________________________
(xarici iqtisadi fəaliyyətin mal nomenklaturası) ("Məhsul növləri təsnifatı" üzrə kod)

____________________________________________________________________________________
(sertifikatlaşdırılan malı (işi, xidməti) təklif edən hüquqi şəxsin adı, hüquqi ünvanı, fiziki şəxsin adı, soyadı, atasının adı və ünvanı)

____________________________________________________________________________________
(məhsulun istehsal edildiyi, işin və xidmətin göstərildiyi yerin ünvanı)

_________________________________________________________________________ tələblərinə
(standartlaşdırma üzrə normativ sənədlərin adı, nömrəsi və tarixi)
cavab verir.

Sertifikat ____________________________________________________________əsasında verilib.
(verilməsi üçün əsas)

____________________________________________________________________________________
(əlavə məlumat (olduqda)

Akkreditasiya edilmiş uyğunluğu
qiymətləndirən qurumun rəhbəri
(səlahiyyətli nümayəndəsi) _______________ __________________________________
(imza) (adı, soyadı, atasının adı)

M.Y.

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

(olduqda)

Uyğunluğu qiymətləndirən səlahiyyətli şəxs

_______________________________ (imza) _______________ (adı, soyadı, atasının adı)

LAYİHƏ

 ©AZSTAND –Bütün hüquqlar qorunur

İCS

Əsas sözlər: uyğunluğun qiymətləndirilməsi, dövri qiymətləndirmə, uyğunluğun könüllü qiymətləndirilməsi, akkreditasiya olunmuş sınaq laboratoriyası, xarici mənşəli uyğunluq sənədləri, normativ sənəd, sertifikatlaşdırma sxemi, uyğunluq sertifikatı, uyğunluq nişanı, keyfiyyət sistemi, təhlükəsizlik, mal partiyası,

LAYİHƏ

©AZSTAND –Bütün hüquqlar qorunur

Rəsmi nəşr
“Azərbaycan Standartlaşdırma İnstitutu”
Publik hüquqi şəxs

**AZS 498-2010**
**Uyğunluğun qiymətləndirilməsi.**
**Malın sertifikatlaşdırılması qaydası**

LAYİHƏ


©AZSTAND –Bütün hüquqlar qorunur